# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ana dilimiz varlığımız, qürurumuzdur!




7


SƏS
№ 032 (7200)
21 fevral 2025-ci il.
Qiyməti 60 qəpik


## "Siz Heydər Əliyevin etibarlı silahdaşı olmusunuz"



3

Prezident İlham Əliyev Artur Rasi-zadəyə "Heydər Əliyev" ordenini təqdim edib

# Klanların döyüşü:

## USAİD ilə bağlı QARŞIDURMA




5

### Qida terroru nədir, necə aparılır?



10

### Kərə yağı alarkən nəyə diqqət etmək lazımdır?



16

### "Əməkdaşlığımız gələcək illərdə daha da zənginləşəcək"



4

### İrəvanın Avropa xəyalları və ERMƏNİSTAN ÜÇÜN RİSKLƏR




9

### Səndən doğma bir dil varmı bu dünyada?



7

# Bütün Qarabağ bölgəsi, Şərqi Zəngəzur bölgəsi dirçəlir

***Böyük Qayıdış tarixində daha bir əlamətdar hadisəyə - yaddaşımızda daşlaşacaq bir qayıdışa Xocalı qayıdışına şahidlik etdik. Yüzlərlə insanın qanı tökülən bir şəhərə qayıdış, inləyən, sızlayan bir şəhərə qayıdış. Bir gecənin içində məhv olan sakinləri dərbədər düşən, qocası, uşağı zillətlə məhv edilən bir torpağa qayıdış.***

Bu gün Xocalı niskilli deyil, bayram əhvali-ruhiyyəsindədir. Bəli, xocalılılar mərhələli olaraq şəhərə qayıdırlar. Bəşəriyyət tarixinin insanlıq əleyhinə yönəlmiş ən dəhşətli cinayətlərdən biri olan, Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik zəmində soyqırımı siyasətini sübut edən Xocalı soyqırımından 33 il ötür. Bu illər ərizində bu torpaqlara qayıdacağımız günü gözləyirdik. 1992-ci ilin 26 fevral tarixində erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Xocalı bir gecənin içərisində yerlə-yeksan olundu. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində, Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi.







## "SEPARATÇILARIN KÖKÜ KƏSİLDİ"

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. "İkinci Qarabağ müharibəsi və ondan sonra antiterror əməliyyatı ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsinə gətirib çıxardı, separatçıların kökü kəsildi. Azərbaycan ərazisində separatizmin kökü tam kəsilmişdir və Azərbaycan vətəndaşları öz doğma torpağına qayıda bilirlər. İndi hər yerdə quruculuq, bərpa işləri aparılır". Bu barədə Prezident İlham Əliyev Xocalı rayonunun Ballıca kəndinə köçən bir qrup sakinlə görüşdə bildirib. Ballıca kəndini biz 2023-cü ilin sentyabrında azad etdik, - deyən Prezident bildirib ki, torpaqlarımızın işğaldan azad edilməsi mərhələli yollarla təmin olunmuşdur.

Azərbaycan tarixi ədaləti bərpa edib və günahsız Xocalı qurbanlarının qisası döyüş meydanında alınıb. Artıq bu gün Xocalının qapısı üzümüzə açıqdır. Azərbaycan əzəli torpaqlarına sahibdir.

## QALİB SƏRKƏRDƏNİN VERDİYİ MESAJLAR

Artıq Xocalıda ədalətin təntənəsi yaşanılır, yeni bir dövrün başlanğıcı. Xocalı yenidən qurulur. "Şadam ki, uzun fasilədən sonra Ballıca kəndinə də artıq həyat qayıdıb. Keçmiş köçkünlər indi demək olar ki, hər ay hissə-hissə, qrup-qrup öz dədə-baba torpaqlarına qayıdırlar. Böyük Qayıdış Proqramı icra edilir. Demək olar ki, vaxtilə işğal altında olan bütün torpaqlar bərpa edilir. Dünən Ağdam rayonunda gedən quruculuq-bərpa işləri ilə tanış olmuşam. Bu gün buradayam. Eyni zamanda, Xankəndidə də olmuşam, orada da gözəl işlər görülür, yeni iş yerləri, yeni müəssisələr yaradılır. Mənim Sərəncamımla Qarabağ Universiteti yaradılmışdır. Orada mindən çox tələbə oxuyur. Orta məktəblər, tibb məntəqələri inşa olunur. Yəni, həyat üçün nə lazımdırsa, hər şeyi edirik, həm şəhərləri, həm də kəndləri bərpa edirik" - deyə Prezident qeyd edib: "Ballıca kəndinin də bərpası artıq son mərhələdədir. Mənə verilən məlumata görə, 137 ev artıq bərpa edilib və 60-a yaxın ev hələ bərpa olunacaq. Ballıcada artıq 460 keçmiş köçkün yerləşib. Evləri bərpa etmişik, kənd təsərrüfatı ilə məşğul olmaq üçün imkanlar yaxşıdır, torpaq münbitdir, hava da təmizdir. Bütün Qarabağ bölgəsi, Şərqi Zəngəzur bölgəsi dirçəlir və hər gün biz bunu əyani şəkildə görürük".

Cənab Prezident müharibədən sonra azad olunmuş ərazilərə şəxsən səfər edir, həmin torpaqlardan qarşıda duran vəzifələrlə bağlı mesajlarını verir. Hər bir ərazidən qalib ordunun və dövlətin qalib SƏRKƏRDƏSİ kimi səsini ucaldır, mesajlarını verir, dünya bunu görür və eşidir. "Ballıca kəndi bərpa etdiyimiz və keçmiş köçkünlərin qayıtdığı 10-cu yaşayış məntəqəsidir. Yəni, bu, Böyük Qayıdış Proqramının birinci mərhələsinə aiddir. Artıq burada, yenə də deyirəm, 500-ə yaxın insan yaşayır. Həm o vaxt bu bölgədə yaşayan vətəndaşlar, eyni zamanda, onların uşaqları, nəvələri, nəticələri qayıdıblar. Bu, bir daha onu göstərir ki, xalqımız öz torpağına nə qədər bağlıdır. Bu gün bölgəni, bu yerləri görməyən balaca uşaqlar, yaxud da ki, gənc insanlar həvəslə qayıdırlar, işləyirlər, qururlar, yaradırlar", - deyə Prezident qeyd edib.

Bildiyimiz kimi, ötən ilin fevralın 26-da Xocalı soyqırımı günü Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoymuşdu. Xocalı-Əsgəran avtomobil yolunun üzərində Heydər Əliyev Fondu tərəfindən yaradılacaq. Xocalı Soyqırımı Memorialı bəşəriyyətə qarşı yönəlmiş dəhşətli qətliam haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsində əhəmiyyətlidir.

## XOCALI - MÜASİR ŞƏHƏR

Şəhər mühitini canlandıran yeni nəqliyyat qovşağı vacib rol oynayacaq, mobilliyi artıracaq. Bu, həmçinin şəhərdə iqtisadiyyatın, sahibkarlığın inkişafına da xüsusi təkan verəcək. Bütün bunlar dinamik inkişafı təmin edən iqtisadi şaxələndirməyə imkan verəcək. Burada çox zəngin kənd təsərrüfatı torpaqları olduğunu nəzərə alaraq, şəhər daxilində kiçik aqropark yaradılması təklif olunur. Müxtəlif tikinti materialları istehsalı, yüngül sənaye, qida sənayesi obyektləri yaradılacaq, nəqliyyat və logistika ənənəvi əsas sektor olaraq inkişaf etdiriləcək. Xocalı müasir şəhər olacaq. Xocalının Baş planını hazırlayarkən ilk növbədə, onun regiondakı mövqeyi də nəzərə alınıb. Bura strateji mövqeyə malikdir. Beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil yolu, hazırda layihələndirilən, tezliklə çəkiləcək dəmir yolu və s. bütün bunlar Xocalının gələcəyini artıq bir qovşaq kimi, nəqliyyat qovşağı və logistika mərkəzi kimi şərtləndirir.

Eyni zamanda, strateji əhəmiyyətə malik Ağdam, Xankəndi şəhərlərinin, mədəniyyət paytaxtımız Şuşa şəhərinin çox yaxında yerləşdiyini də nəzərə alaraq, regionla inteqrasiyasına xüsusi önəm verilib. Bu tərəfdə Xocalı şəhərinin tünd qəhvəyi rənglə əvvəl mövcud olmuş sərhədləri göstərilib, 610 hektar təşkil edirdi. Hazırda isə 1300 hektara yaxın ərazi nəzərdən keçirilir. Xocalı şəhərində orta təhsil müəssisəsi və uşaq bağçası da inşa olunub. Məktəbin qarşısında park, onun yanında isə sənətkarlar məhəlləsi salınıb. Həmçinin idman kompleksində tamamlanma işləri görülür. Kompleksdə şahmat, cüdo, güləş, gimnastika, stolüstü tennis, basketbol, minifutbol, badminton ilə məşğul olmaq üçün lazımi şərait yaradılacaq. İnfrastruktur işlərinin yaxın müddətdə tamamlanması nəzərdə tutulur:

## QƏLƏBƏMİZİN RƏMZİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib. Xankəndi şəhərində Zəfər parkının salınması məqsədilə 12,9 hektar ərazidə söküntü işlərinin aparılması nəzərdə tutulub. Ərazi şərti olaraq iki hissəyə bölünüb və 8,3 hektar sahəsi olan birinci hissədə söküntü işləri artıq yekunlaşıb. İkinci hissə isə 4,6 hektar ərazini əhatə edir. Burada da söküntü işləri aparılacaq.

Ərazidəki mövcud ağacların qorunması məqsədilə aidiyyəti təşkilatlarla birgə baxış keçirilib və müxtəlif növ 262 ağac müəyyən edilib. Bundan başqa, parkın ərazisində 21 növ üzrə 300-dən çox ağacın əkilməsi nəzərdə tutulur. Hazırda ərazidə planlaşdırma işləri görülür. Qeyd edək ki, ölkəmizdə yaradılan Zəfər parkları xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın, qazandığı möhtəşəm tarixi Qələbənin, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının rəmzidir.

## AZƏRBAYCAN-ÖZBƏKİSTAN BİRGƏ MÜƏSSİSƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub. Qeyd edək ki, ərazisi 1,2 hektar olan fabrikin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən həyata keçirilib. Layihənin ümumi investisiya dəyəri 11 milyon manat təşkil edir. İndiyədək 5,5 milyon manat investisiya qoyulub. Fabrikin xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Həmçinin fabrik tam gücü ilə işlədikdən sonra yerli pambıq xammalı əsasında parça toxunması üçün istehsal sahəsinin yaradılması nəzərdə tutulur.

Ümumilikdə burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 300 nəfər hazırda işlə təmin olunub. Müəssisədə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna xüsusi diqqət yetirilib.

Müəssisə fəaliyyətə başlayandan bəri 50 minə yaxın idman köynəyi istehsal edilib. Bu il 924 min ədəd köynək istehsalı planlaşdırılır. Gələcəkdə isə Xankəndi tikiş fabrikində ildə 3-5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal edilməsi nəzərdə tutulur. Fabrikdə istehsal olunacaq məhsullar müxtəlif ölkələrə də ixrac ediləcək. Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabriki yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır və ölkələrimiz arasında ənənəvi dostluq, qardaşlıq, iqtisadi tərəfdaşlıq əlaqələrini möhkəmləndirir.

Xatırladaq ki, ötən ilin noyabrında Bakıda keçirilən COP29 tədbiri zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən videobağlantı vasitəsilə Xankəndi tikiş fabrikinin açılışı olub. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Siz Heydər Əliyevin etibarlı silahdaşı olmusunuz”

## Prezident İlham Əliyev Artur Rasi-zadəyə "Heydər Əliyev" ordenini təqdim edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Artur Rasi-zadəni qəbul edib və ona ”Heydər Əliyev” ordenini təqdim edib. Görüşdə çıxış edən dövlətimizin başçısı bildirib ki, Artur Rasi-zadə uzun illər ərzində Azərbaycanın inkişafına töhfə verib:***

-Hörmətli Artur müəllim, sizi qarşıdan gələn yubileyiniz münasibətilə təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram. Siz uzun illər ərzində Azərbaycanın inkişafına töhfə vermisiniz. Müxtəlif məsul vəzifələrdə çalışaraq Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük səylər göstərmisiniz həm sovet dövründə, həm də müstəqillik dövründə. Ulu Öndər Heydər Əliyev sovet dövründə sizin peşəkarlığınızı, biliklərinizi nəzərə alaraq, - hələ o vaxt siz gənc yaşlarınızda idiniz, - sizi qabağa çəkərək önəmli vəzifələrə təyin etmişdir, Nazirlər Sovetinin sədrinin müavini vəzifəsinə. Ulu Öndər Heydər Əliyev müstəqillik dövründə Azərbaycan Prezidenti seçiləndən sonra ilk təyinatlarından biri də sizi özünə köməkçi təyin etməyi idi. Ondan sonra sizi daha böyük vəzifəyə layiq gördü və Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin etdi.



Təbii olaraq, Ulu Öndər Heydər Əliyev insanları tanıyırdı, onların peşəkarlığını, biliklərini və bilirəm ki, sizi də bir insan kimi həmişə yüksək qiymətləndirirdi. Həm dediyim keyfiyyətlərə, eyni zamanda, prinsipial mövqeyinizə görə. Sizin prinsipial mövqeyiniz bütün məsələlərdə özünü göstərirdi - həm ölkəmizin iqtisadi inkişafı ilə, həm də bütün başqa məsələlərlə bağlı.

Biz sizinlə 15 il işləmişik - 2003-cü ildən 2018-ci ilə qədər. Hesab edirəm ki, o illər Azərbaycan iqtisadiyyatı üçün ən sürətli inkişaf illəri olmuşdur. Azərbaycan iqtisadiyyatı o illərdə bəlkə də iki dəfə çox artmışdır və ölkə qarşısında duran əsas infrastruktur layihələrinin həlli, ya da ki, başlanması məhz o illərə təsadüf edir. Sizin rəhbərliyinizlə Nazirlər Kabineti Prezidentin tapşırıqlarını ləyaqətlə yerinə yetirirdi və bu gün Azərbaycanın dayanıqlı iqtisadi inkişafı təbii olaraq bizim müstəqilliyimizin əsasını təşkil edir. Birlikdə işlədiyimiz 15 il ərzində daim təmasda idik, məsələləri müzakirə edirdik, həll edirdik. 2018-ci ildən sonra da təmasdayıq. Şadam ki, siz yubileyinizi çox yaxşı fiziki formada qarşılayırsınız və sizi həmişə görmək mənim üçün xoşdur. İllər boyunca bir çox telefon söhbətimiz olubdur, bir çox məsələləri müzakirə etmişik. Sizi bu gün gözəl yubiley ərəfəsində dəvət etdim ki, sizə Azərbaycan dövlətinin ən ali mükafatı olan ”Heydər Əliyev” ordenini təqdim edim. Bu gün imzaladığım Sərəncamla siz ölkəmizin ən ali mükafatına layiq görülmüsünüz. Siz buna layiqsiniz, siz Heydər Əliyevin etibarlı silahdaşı olmusunuz. Yenə də deyirəm, həm sovet dövründə, həm müstəqillik dövründə, özü də müstəqilliyimizin ən ağır dövrlərində atamın yanında olmusunuz. O, bunu qiymətləndirirdi, mən də həmişə qiymətləndirirdim və qiymətləndirirəm. Bu, tam ədalətli bir qərardır və icazə verin, mən bu yüksək ordeni sizə təqdim edim.

Daha sonra Prezident İlham Əliyev ”Heydər Əliyev” ordenini Artur Rasi-zadəyə təqdim etdi.

Əməyinə verdiyi qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Artur Rasi-zadə Ulu Öndər Heydər Əliyevin adını daşıyan ordenə layiq görülməyin onun üçün ən böyük şərəf olduğunu dedi, Ümummilli Liderlə və Prezident İlham Əliyevlə uzun illər ərzində çalışmaqdan fəxr hissi keçirdiyini vurğuladı. Artur Rasi-zadə Azərbaycan Prezidentinin tarixi hadisənin müəllifi olduğunu, torpaqlarımızın 30 illik işğalına son qoyduğunu və orada yeni həyatın başladığını qeyd etdi.





# “Xalqlarımızın ortaq tarixi, mədəni və dini kökləri var”

## *Prezident İlham Əliyev İran İslam Şurası Məclisinin sədrini qəbul edib*

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 20-də İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibafın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Azərbaycan Prezidenti iki ölkənin xalqlarının ortaq tarixi, mədəni və dini köklərinin olduğunu, xalqlarımızın yaxınlığını vurğuladı.***

Son dövrlərdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif səviyyələrdə ikitərəfli səfərlərin intensiv xarakter daşımasını məmnunluqla qeyd edən Prezident İlham Əliyev bunu əlaqələrimizin dinamik surətdə inkişafının təzahürü kimi qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimizin parlamentlərarası əlaqələrinin genişləndiyini qeyd etdi və İran İslam Şurası Məclisinin sədrinin Azərbaycana səfərinin bu əlaqələrin daha da inkişafına təkan verəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycan Prezidenti iqtisadi-ticari, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu. Şimal-Cənub nəqliyyat dəhlizinin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bu dəhlizin Azərbaycana aid olan hissəsində yükdaşıma imkanlarının artırılması üçün ölkəmiz tərəfindən zəruri işlərin görüldüyünü dedi. Dövlətimizin başçısı Ağbənd keçidinin inşası istiqamətində fəaliyyətin intensiv şəkildə həyata keçirildiyini və bu layihənin regionun nəqliyyat imkanlarının artırılmasına töhfə verəcəyini qeyd etdi.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələri tərəfindən həll edilməli və bölgədənkənar qüvvələrin regiona müdaxiləsinin qəbuledilməz olduğunu dedi, 3+3 formatının əhəmiyyətini vurğuladı.

Məhəmməd Baqir Qalibaf İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarının Məsud Pezeşkiana çatdırılmasını xahiş etdi. Qonaq Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının Bakıda yüksək səviyyədə təşkil olunduğunu söylədi, iki ölkə arasında səfərlərin intensiv xarakter daşımasından məmnunluğunu diqqətə çatdırdı.

Azərbaycan ilə İran arasında iqtisadiyyat, ticarət, elm, texnologiya, səhiyyə sahələrində və digər sahələrdə əməkdaşlığın inkişafı üçün çox yaxşı imkanların olduğunu vurğulayan Məhəmməd Baqir Qalibaf bu xüsusda hökumətlərarası komissiyanın işinin daha da intensivləşdirilməsinin vacibliyinə toxundu.

Ölkəsinin Azərbaycanla birlikdə regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında ortaq maraqları bölüşdüyünü deyən qonaq İranın regionun məsələlərinin region ölkələri tərəfindən həll edilməsi yanaşmasını dəstəklədiyini bildirdi. O, Azərbaycan ilə İranın beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyini və yaxından əməkdaşlıq etdiklərini vurğulayaraq, 3+3 formatının əhəmiyyətini qeyd etdi. Məhəmməd Baqir Qalibaf dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# "Əməkdaşlığımız gələcək illərdə daha da zənginləşəcək"

## Azərbaycan və Türkiyə arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumunun 5 illiyi ilə bağlı dəyirmi masa keçirilib

Fevralın 19-da Azərbaycan Respublikasının Sosial Tədqiqatlar Mərkəzi (STM), Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin Bakı Mətbuat Müşavirliyi və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumunun 5 ili: Birgə fəaliyyətə baxış, gələcək hədəflər" mövzusunda dəyirmi masa tədbiri keçirilib. Tədbirin açılışında Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, deputat Zahid Oruc Azərbaycan və Türkiyə arasındakı qardaşlıq əlaqələrinə diqqət çəkib: "Qlobal dəyişikliklər və yeni dünya təhlükəsizliyi arxitekturasının axtarıldığı bir dövrdə Azərbaycan və Türkiyə mediasının bir araya gəlməsi mühüm hadisədir. Qürurlu tarixə malik Azərbaycan-Türkiyə sarsılmaz birliyi mürəkkəb formasiya və quruluşlardan keçərək son 5 ildə yeni zirvələrə yüksəlib. Bunun başlıca səbəbi isə hər iki ölkənin liderləri arasındakı sarsılmaz qardaşlıq münasibətləridir. Düşünürəm ki, növbəti illər ərzində bu münasibətlər özünün ən yüksək zirvəsinə çatacaq".

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov qeyd edib ki,







Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın güclü siyasi iradəsi nəticəsində iki ölkə arasında daha da möhkəmlənən qardaşlıq münasibətləri və regionumuzun inkişafına ciddi töhfə verən intensiv əlaqələr media sahəsi də daxil olmaqla, bütün sahələrə öz dinamik təsirlərini göstərir.

Hər iki ölkənin liderlərinin qarşılıqlı səfərlərinin dövlətlərimiz arasında əlaqələrin və strateji tərəfdaşlığın inkişaf etdirilməsi baxımından mühüm tarixi hadisə olduğuna diqqət çəkən icraçı direktor qeyd edib ki, bu səfərlər, habelə səfər çərçivəsində imzalanan sənədlər Azərbaycan və Türkiyə xalqları arasında dostluğun, qardaşlığın əyani təzahürüdür.

"Bizim ortaq dəyərlərimiz və bir-birini tamamlayan məqsədlərimiz əlaqələrimizi gücləndirməklə yanaşı, cəmiyyətlərimizi informasiya ilə təmin etmək kimi vacib funksiyanı yerinə yetirən yerli medianın fəaliyyətində də canlanma yaradıb, ölkələrimizin media nümayəndələrinin, subyektlərinin, həmçinin sahə ilə əlaqədar aidiyyəti qurumların daha sıx və peşəkar münasibətlərinin qurulmasına böyük təkan verib. Eyni zamanda, Azərbaycan və Türkiyə arasındakı strateji münasibətlərin inkişaf dinamikasına uyğun olaraq istər milli media subyektlərimiz, istərsə də aidiyyəti qurumlar xalqlarımızın mənəvi dəyərlərinin təbliği, dövlət maraqlarımızın müdafiəsi, o cümlədən informasiya mühitimizi dezinformasiyalardan qorumaq məqsədilə medianın etik prinsipləri əsasında daha peşəkar fəaliyyət göstərmək üçün əzmlə çalışır.

Anlaşma Memorandumunun 5 illik yubileyini qeyd edərkən, əminəm ki, əməkdaşlığımız gələcək illərdə yeni layihələr və təşəbbüslərlə daha da zənginləşəcək. İki ölkənin media sahəsinə məsul qurumları arasında bilik və təcrübə mübadiləsi, birgə layihələrin həyata keçirilməsi və informasiya təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərdə əməkdaşlıq imkanları daha da artırılacaq", - deyə icraçı direktor bildirib.

Daha sonra çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Azərbaycan və Türkiyə arasında olan sıx əməkdaşlıqda hər iki ölkənin dövlət başçılarının güclü liderliyi və bənzəri olmayan qardaşlığının mühüm rol oynadığını deyib: "Dünyada Azərbaycan və Türkiyə kimi sıx əlaqədə olan başqa dövlətlər yoxdur. Hər iki ölkənin sevinci və kədəri birdir. Gələcək illərdə ölkələrimizin media subyektləri və nümayəndələri arasında qardaşlıq əlaqələrinin daha da genişlənəcəyinə inanıram".

Tədbirdə media nümayəndələri, həmçinin tədbir çərçivəsində keçirilən panellərdə media orqanlarının və aparıcı media subyektlərinin rəhbərləri çıxış edib. Türkiyə və Azərbaycan Media Platforması çərçivəsində təşkil olunan tədbirdə iki ölkə arasında media sahəsində əməkdaşlığın cari vəziyyəti, əldə olunan nailiyyətlər və gələcək perspektivlər müzakirə olunub.

Qeyd edək ki, "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu" Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun və Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən imzalanıb. Sənədin imzalanması ilə Türkiyə-Azərbaycan ortaq media platforması yaradılıb.

# "Azərbaycan ailəsi üçün mənzil sahibi olmaq ən vacib faktorlardan biridir"

"İlk növbədə mənzil investisiyadır. Eyni zamanda mənzil sahibi olmaq rifah göstəricisidir. Amma burada insanlar bir sıra hallarda məcburən seçimlər edirlər". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Rəşad Həsənov deyib.

Onun sözlərinə görə, aydındır ki, hər bir Azərbaycan vətəndaşı mənzil sahibi olmaq istəyir və xüsusilə Azərbaycan ailəsinin dəyərlərini, davranışını nəzərə almış olsaq, Azərbaycan ailəsi üçün mənzil sahibi olmaq ən vacib faktorlardan biridir: "Amma bununla belə, son 3-10 ildə sosial-iqtisadi inkişaf meylləri mənzil əlçatanlığını əhəmiyyətli səviyyədə zəiflətdi. Buna təsir göstərən paytaxt və onun ətrafında sürətli daxili miqrasiya əhalinin təmərküzləşməsi faktoru nəticəsində qiymətlərin artması və ikincisi, nisbətən daha ucuz mənzil sahibi olmaq imkanı olan bölgələrdə işsizlik



və insanların həmin bölgələrdə yaşayışını qura bilməməsi idi. Nəticədə insanlar bəzən seçimlər etməli olurlar. Onlar, hətta öz mənzilləri olduğu halda əlverişli əmək fəaliyyəti mühiti olan, iqtisadi-sosial institutların mövcud olduğu bölgələrə köçməli olurlar. Belə hallarda məcburən kirayə qalırlar. Ölkədə hər il təxminən orta hesabla 70 minə yaxın gənc ailə qurulur. Bunların təxminən 90 %-i məcburiyyət səbəbindən kirayə mənzillərə üz tuturlar, çünki gənclərin yığım imkanı və onların əmək bazarındakı mövqeyi, gəlirlərin səviyyəsi mənzil sahib olmaq imkanını indiki halda məhdudlaşdırır. Biz əgər adam başına düşən yaşayış sahəsinə diqqət etsək, görərik ki, Azərbaycan nəinki inkişaf etmiş ölkələrlə müqayisədə, hətta Qafqaz, keçmiş SSRİ-nin digər ölkələri ilə müqayisədə çox zəif mövqeyə malikdir. İnsanların indiki şərtlər daxilində bəzən 20-30 il əmək fəaliyyəti göstərməsi belə, mənzil sahibi olmaq imkanını məhdudlaşdırır. Onlar kirayə mənzillərdə yaşamaq məcburiyyətində qalırlar".

"Bir sıra hallarda, hətta öz mənzillərini kirayə verib, başqa mənzillərdə kirayə yaşayan halların da xüsusilə bir bölgə daxilində, paytaxt və onun ətraf ərazilərində son illərdə geniş yayıldığı müşahidə olunub. Buna da səbəblərdən biri nəqliyyat infrastrukturu, gün ərzində yola sərf edilən vaxtın, xərcin çoxluğu insanları seçimlər etmək məcburiyyətində qoyur. Azərbaycanda kirayə mənzil bazarı əhalinin təminatında əhəmiyyətli mövqeyə malikdir və bu tendensiyanın yaxın dövrlərdə zəifləyəcəyi ehtimalları da çox aşağıdır. Zaman keçdikcə bu istiqamətdə təzyiqlər artır və insanlar məcburən bəzən ömürboyu kirayələrdə yaşayır" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

***Xarici kreditlərə nəzarət uğrunda Amerika klanlarının "döyüşü", yəni qarşıdurmaları haqqında çoxdan məlumatlı idik və indi artıq USAİD məsələsində bu mübarizə daha qabarıq şəkildə ortaya çıxıb. Maliyyə sistemində hansısa "qaranlıq" məqamların olması ABŞ üçün heç də yenilik deyil və ümumiyyətlə, həmin ölkədə maliyyə məsələləri ilə bağlı "müəmmalı" vəziyyət bir növ, adi hala çevrilib. Amma artıq məhz maliyyə sistemində olan qarışıqlıqlar, xüsusən də USAİD kimi bütün dünyada dırnaqarası da olsa, "ad qazanmış", yaxud, "tanınmış" bir qurumun barəsində qəbul olunan qərar fərqli şəkildə qarşılanır. Daha dəqiq desək, maliyyə məsələləri ilə bağlı məhz Mask ilə Rokfeller arasında USAİD ilə bağlı qarşıdurma yaranıb.***

# Klanların döyüşü:
## USAİD ilə bağlı QARŞIDURMA




### ABŞ prezidentinin məhz maliyyələşdirməni qadağan edən sərəncamının müzakirəyə belə çıxarılması bəzi məsələlərlə bağlı ciddi şübhələr yaradır

Dəfələrlə şahidi olmuşuq ki, Donald Trampin nə isə bir qərara gəldiyi zaman onun icrasına məhkəmə tərəfindən dərhal "manevr yaradılması" görüntüsü ortaya çıxır və bu, artıq ənənə halını alıb. Məsələn, bir qədər əvvəl prezidentin məhz vətəndaşlığın verilməsini məhdudlaşdıran sərəncamını Merilend Dairə Məhkəməsinin qeyri-müəyyən müddətə dayandırdığı məlumdur. Eləcə də, 7 fevral 2025-ci ildə ABŞ-ın Kolumbiya Dairəsi üzrə Dairə Məhkəməsi ABŞ prezidentinin USAİD-in maliyyələşdirməsini qadağan edən sərəncamını da dayandırmaq üçün "müvəqqəti" bir qərarı çıxarıb. Maraqlıdır, USAİD hansı təşkilatdır ki, belə bir qərar ortaya çıxır? ABŞ prezidentinin məhz maliyyələşdirməni qadağan edən sərəncamının müzakirəyə belə çıxarılması bəzi məsələlərlə bağlı ciddi şübhələr yaradır

Bildiyimiz kimi, Beynəlxalq İnkişaf Agentliyi 1955-ci ildə yaradılmış Beynəlxalq Əməkdaşlıq Administrasiyasının "varisi" olaraq qəbul olunur. Onu da bilirik ki, bu "varis" mövcud olduğu 70 il ərzində bir çox zorakı, məcburi çevrilişlər və silahlı münaqişələr təşkil etməklə, "ad qazanıb" və artıq "məşhurlaşıb" da. Xüsusilə, 2014-cü ildə Ukraynada baş vermiş çevrilişin məhz USAID vasitəsilə maliyyələşdirildiyi də sirr deyil. Agentliyin xüsusən də Rusiya və Belarusda hökumət əleyhinə aksiyaların təşkilatçılarına qrantlar ayırdığı da bəllidir. Eyni zamanda, onu da unutmaq lazım deyil ki, USAID dünyanın ən geniş strukturlarından biri kimi dövrümüzə qədər qəbul olunub. Onun 100-dən çox ölkədə "missiyaları" olub. Sözün əsl mənasında, bu "kələf" Afrika, Asiya, Latın Amerikası, Yaxın Şərq və Şərqi Avropanı öz əhatəsinə çoxdan almışdı və "təsir dairəsi" də kifayət qədər olub. Bəs belə bir təşkilatla bağlı müvafiq qərar niyə bu vaxta qədər qəbul olunmayıb və yenə də ortada olan tərəddüdlər indi nəyə görədir?

USAID məhz formal olaraq, müstəqil dövlət qurumu statusuna malikdir. Belə təşkilatlar icra strukturlarının bir hissəsi hesab olunur, lakin heç də prezidentə tabe deyillər. Onların səlahiyyətləri Konqresin xüsusi aktları ilə müəyyən edilir. Xüsusilə, USAID-in funksiyaları 1961-ci il Xarici Yardım Aktı ilə müəyyən edilibdir. Yenə də bir sual ortaya çıxır ki, bəs həmin bu təşkilat, özü də çevrilişlər, silahlı münaqişələr təşkil edən qurum nə üçün yaradılmışdı və məqsəd, məram nədən ibarət olub? Hansı maraqlar olub ki, bu təşkilat yaradılıb və bu vaxta qədər də "öz ömrünü" sürməkdədir? Yaxşı, əgər hansısa maraq olmayıbsa, indi niyə ABŞ boyda hegemon bir ölkənin rəhbərinin, o yekəlikdə dövlətin prezidentinin qərarı hələ də ləngiyir? Belə çıxır ki, ortada maraqlı tərəf var və maraqlar toqquşur deyə hansısa qarşıdurma yaranır

### Guya ki, agentliyin rəsmi funksiyası, məqsədi "inkişaf etməkdə olan ölkələrə" hansısa formada "yardım" etməkdir

Nədənsə müstəqil dövlət qurumlarının maliyyələşdirilməsinin təşkili xüsusi "maraq" doğurur. Nəyə görə isə, onlara vəsait ayrılması ABŞ-ın federal büdcəsində formal olaraq belə, nəzərdə tutulmayıb. Yalnız ABŞ prezidentinə tabe olan qurumlar öncədən nəzərdə tutularaq, federal büdcədən maliyyələşirlər. Qanuna əsasən, müstəqil dövlət qurumları ABŞ xəzinədarlığından zəmanət alırlar. Beləliklə də, USAID kimi dırnaqarası "inkişaf fondları" ABŞ xəzinədarlığından "borc" istiqrazları alırlar. Bu istiqrazlar da FED-ə təhvil verilir, o da öz növbəsində onları nağd pula, yəni, dollara dəyişdirir. Vəsaitlər USAİD aparatının saxlanmasına, eləcə də xarici əməliyyatlara yönəldilir. Nəhayət, belə məlum olur ki, agentlik qazandığı "mənfəətlə" xəzinədarlıq istiqrazlarını ödəməlidir. Bu məqsədlə USAİD-in birjalardakı qiymətli kağızların bəziləri üzrə "spekulyasiya etmək" hüququ olur.

Guya ki, agentliyin rəsmi funksiyası, məqsədi "inkişaf etməkdə olan ölkələrə yardım etmək"dir. Bildiyimiz kimi, əvvəlcə bu yardım Avropa ölkələrinin Asiya, Afrika və Amerikadakı keçmiş koloniyalarına verilməli idi. Sonralar Xarici Yardım Aktı keçmiş sosialist bloku ölkələrinə də şamil edilməyə başladı. USAİD-in öz "alıcılarına" infrastruktur və digər layihələr üçün qrant və kreditlər ayıracağı elan edildi. Eyni zamanda, agentlik təkcə siyasi deyil, həm də iqtisadi "vəzifələrə" diqqət yetirirməyə başladı. Buna görə də, ilk növbədə, böyük faydalı qazıntı ehtiyatlarına malik olan ölkələr "maraq dairəsinə" düşdü. Nəticədə agentliyin funksiyalarına bəzi ölkələrin resurslarına nəzarətin yaradılması da daxil oldu. Bu məqsədlə USAİD "inkişaf etməkdə olan" ölkələri borc asılılığına sürükləmək üçün çevrilişlər təşkil etmək və müharibələr törətmək üçün daha çox resurs ayırmaq niyyəti ilə çıxış etdi.

### USAİD inzibatçıları vəzifələrini eyni klanın nümayəndələri - Rokfeller Fondu ilə yaxından əlaqəli şəxslərin tutulması diqqəti cəlb edən məqamdır

USAİD-in fəaliyyəti dırnaqarası şəkildə o qədər "uğurlu" oldu ki, hətta ABŞ-da bütün xarici kreditlərin yarısının mənbəyinə də çevrilə bildi. Beləliklə, agentlik xarici maliyyə fəaliyyətinə görə hətta Nyu-York Federal Ehtiyat Bankını da geridə qoyub. USAİD-in fəaliyyəti o qədər "təsirli" oldu ki, onun rəhbərləri, inzibatçıları Milli Təhlükəsizlik Şurasının daimi tərkibinə də daxil edildilər. Belə bir "dadlı loxma" üçün iddiaçılar nə isə edə də bilməzdi. Üstəlik, USAİD inzibatçıları vəzifələrini adətən eyni klanın nümayəndələri - Rokfeller Fondu ilə yaxından əlaqəli olan şəxslər tuturdu və bu da çoxdan bəlli məsələ hesab olunan məqamdır. Amma nədənsə, guya yenicə bəlli olmuş kimi bir təəssürat yaratmaq istəyi baş qaldırdı.

Bəli, Donald Trampın "gəlişi" ilə hər şey dəyişməyə başladı. "Ofisin yeni sakini" digər ölkələrə "yardımı" dayandırmaq üçün "kurs" elan etdi. Andiçmədən dərhal sonra da ilk fərmanlardan biri agentliyin maliyyəsini tamamilə dondurmaq oldu. Dəqiq desək, xəzinə istiqrazlarının buraxılmasını, artıq buraxılmış istiqrazlarla əməliyyatların həyata keçirilməsini və digərlərini də dayandıraq qərarı verildi. Görünən odur ki, bu "qərar" heç də "xoşagələn" olmadı. İndi ortada olan bəzi "mübarizələr" də təsadüfi şəkildə təzahür etmir. Xüsusən də, Rokfeller Fondu ilə yaxından əlaqəli şəxslərin inzibatçı vəzifələrində "oturması" fonunda bunu təsadüfi saymaq olmaz. Söhbət "maliyyədən" gedirsə, bunun nə demək olduğunu ümid edirik ki, hər kəs yaxşı başa düşür...

### Söhbət maliyyə axınlarının "Tesla" sahibinin xeyrinə yenidən "bölüşdürülməsindən" gedir və bu da "rəqibləri" qane edəcək görünmür

Trampın "proqramı" formal olaraq da olsa, məhz USAİD-in funksiyalarının birbaşa hökumətə veriləcəyini nəzərdə tutur. Bir məsələ də bu arada diqqəti cəlb etməyə bilməz ki, məhz xarici yardımın verilməsinə nəzarəti İlon Maskın "səmərəlilik departamenti" adlandıran şöbəsi həyata keçirəcək. Beləliklə, söhbət əslində, maliyyə axınlarının "Tesla" sahibinin xeyrinə yenidən "bölüşdürülməsindən" gedir. Lakin hadisələrin bu cür "inkişafı" rəqibləri qane edəcək görünmür. Məhz qarşıdurmalar da təsadüfi sayıla bilməz. Hər halda, Rokfeller və Mask "nəyi isə" daha qətiyyən "bölüşə" bilmir və indi ortaya çıxan qarşıdurmanın da səbəbi elə budur.

Kolumbiya dairəsindən olan federal hakimin verdiyi qərarı xatırlamaq bu məqamda tamamilə yerinə düşər. Beləki, konkret olaraq o, prezident fərmanının yalnız USAİD əməkdaşlarına maaşların verilməsi ilə bağlı hissəsini "qanunsuz" kimi tanıyıb. Lakin məhkəmə beynəlxalq qrantların maliyyələşdirilməsinin tam bərpası tələbini təmin etməyib. Amma təcrübədən göründüyü kimi, prezidentin sərəncamının bir hissəsi belə ləğv olunsa, onun bütün icrası qeyri-mümkün olacaq. Buna görə də Tramp "əks addım" hazırlayır. Onun administrasiyası artıq USAİD işçilərini iş yerlərinə buraxmayacağını bildirib. Bu, "konstitusiyaya zidd" ittihamlar üçün daha böyük ilkin şərtlər yaradacaq.

İstənilən halda, biz artıq ABŞ-ın "maliyyə sistemi uğrunda" mübarizənin başladığının şahidi oluruq. Məsələ burasındadır ki, bu mübarizə fonunda ortaya çıxan "qarşıdurmalar" ən yaxın dövrdə özünü göstərməli olacaq. Hər halda, nə Mask, nə də qarşı tərəf, yəni, Rokfeller Fondu ilə yaxından əlaqəli olan şəxslər geri çəkiləcək kimi görünmür. Bu arada, həm də Donald Trampın "qərarı" da müzakirə mövzusu kimi gündəmi zəbt etməyə bilməz. Yəqin ki, hadisələrin gedişini izlədikdə "hər şey" üzə çıxacaq və sular durulduqca, dibindəki "daşlar" da görünməli olacaq. İstənilən halda, ABŞ kimi bir dövlətdə maliyyə məsələləri ilə bağlı "mübarizə" və bundan doğan qarşıdurma "çox qaynar" bir dövrün başlandığını proqnozlaşdırmağa əsas verir...

***İnam Hacıyev***

ARAŞDIRMA

# Rusdilli məktəblərə ehtiyac var?

**1991-ci ildə Sovet İttifaqı dağılandan sonra müstəqilliyini qazanmış respublikalarda, o cümlədən Azərbaycanda rus dilində tədris məsələsinə müxtəlif yanaşmalar olub. İstər orta, istərsə də ali təhsil müəssisələrində sovet dövründən qalma rus bölmələrinin ləğvinin tərəfdarları da var, əleyhdarları da. Bu mövzu zaman-zaman ölkə mediasında müzakirə olunub, son dövrlərdə sosial şəbəkələrdə də müzakirəyə çıxarılır.**




## Rus dilində tədris

Azərbaycanda 120 min nəfərdən çox rus yaşayır. Bu, Azərbaycan əhalisinin təxminən 1,3 faizi deməkdir. Azərbaycan əhalisinin ümumi sayı 9 milyon 794 min nəfərdir.

Ölkədə 340 orta məktəbdə tədris rus dilində aparılır. Bu, orta məktəblərin 7,6 faizində tədrisin rus dilində aparılması deməkdir. Ölkədə orta məktəblərin ümumi sayı




4472-dir.

Tədrisin rus dilində aparıldığı 340 məktəbdə 90 min şagird rus dilində təhsil alır. Bu, ölkədə ümumən şagirdlərin 6,3 faizinin rus dilində təhsil alması deməkdir. Azərbaycanda şagirdlərin ümumi sayı 1 milyon 416 min nəfərdir. Həmin şagirdlərin 450 mindən çoxu rus dilini xarici dil kimi öyrənir ki, bu da ölkə şagirdlərinin 32 faizi deməkdir.

Ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələrində isə bütün ixtisasların 70 faizdən çoxu rus dilində də tədris olunur.

Göstəricilər son dövrlərdə rus bölməsində təhsil alan şagirdlərin sayının artdığına dəlalət edir. Rus bölməsində təhsil alan şagirdlərin əhatə dairəsi əvvəllər 6 faizdən bir az yuxarı olub. İndi bu rəqəm 14-15 faizdir. Onu da qeyd etmək lazımdır ki, əslində bu, valideynlərin seçiminin nəticəsidir. Yəni rus bölməsində təhsil alan şagirdlərin sayı ona görə artır ki, övladını rusca oxutmaq istəyən valideynlərin sayı artır.

## Azərbaycan dilində tədris

Azərbaycanda tədrisin rus dilində aparıldığı 340 məktəb fəaliyyət göstərir. Bununla yanaşı, respublikada 10 məktəbdə tədris gürcü dilindədir. Gürcüstanda 116 azərbaycandilli məktəb var.

İranda tədrisin erməni dilində aparıldığı məktəblər var, ancaq Azərbaycan dilində tədrisin olduğu məktəb isə yoxdur. Bu necə ola bilər? Əgər kimsə deyir ki, bu, daxili işlərə müdaxilədir, biz bunu tamamilə rədd edirik. Azərbaycanın xarici siyasəti gün kimi aydındır - biz heç bir dövlətin daxili işinə qarışmamışıq və qarışmırıq.

Biz İran məktəblərində Azərbaycan dilində tədris məsələsini ona görə qaldırırıq ki, əks təqdirdə, ana dilində danışan İran azərbaycanlıları dilin ədəbi komponentini itirirlər və Azərbaycan dili sadəcə məişət səviyyəsində qalır."

Bu barədə Prezident İlham Əliyev noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxışında deyib.

Bildiyimiz kimi, Gürcüstanda Azərbaycan dilində məktəblər var.

## Rus sektorunda Azərbaycan dilində tədris olunan fənlər

Məlum olduğu kimi, paytaxt məktəblərinin birinin rus sektorunda təhsil alan 5-ci sinif şagirdinin valideynləri Azərbaycan tarixi fənninin rus dilində deyil, Azərbaycan dilində tədris olunmasına etiraz edərək Elm və Təhsil Nazirliyini məhkəməyə veriblər.

Valideynlər rus bölməsində təhsil alan məktəblilərin Azərbaycan dilində kompleks şəkildə təqdim olunan materialı tam mənimsəyə bilmədiklərini əsas gətirərək, Azərbaycan tarixinin rus dilində tədris olunmasını tələb edirlər. Onların fikrincə, 5-ci sinif üçün rus dilində hazırlanmış "Azərbaycan tarixi" dərsliyi uşaqlar üçün daha başa düşülən və öyrənilməsi asandır. Valideynlərin vəkili məhkəmədə çıxış edərək bildirib ki, mövcud vəziyyət məktəblilərin və onların valideynlərinin konstitusiya hüquqlarını pozur.

Məhkəmədə Elm və Təhsil Nazirliyinin nümayəndəsi çıxış edərək, Azərbaycan tarixi fənninin dövlət dili olan Azərbaycan dilində tədris olunmasının qanunvericilikdə müəyyən edilmiş normalara uyğun həyata keçirildiyini vurğulayıb. Nazirlik təmsilçisi əlavə edib ki, bu yanaşma ölkədə təhsil standartlarının bir hissəsidir və dövlət dilinin qorunması ilə əlaqədardır. Hər iki tərəfi dinləyən məhkəmə iddianı qəbul edərək məsələnin müzakirəsi üçün növbəti məhkəmə iclasını 14 fevral tarixində keçirəcəyini elan edib. Bu məsələ ölkə ictimaiyyətində geniş müzakirələrə səbəb olub. Əksəriyyət təhsil ekspertləri, valideynlər və ictimaiyyət nümayəndələri məsələ ilə bağlı fərqli fikirlər səsləndiriblər.

Bəzi təhsil ekspertlərinin fikrincə, Azərbaycan tarixi kimi mühüm bir fənnin dövlət dilində tədris olunması zəruridir, çünki bu, şagirdlərin yalnız tarixi bilikləri deyil, həm də dövlət dilini mənimsəmələri üçün vacibdir. Ekspertlər hesab edirlər ki, dövlət dilində tədris edilən fənlər yalnız dil biliklərini inkişaf etdirməklə qalmır, həm də milli kimliyin formalaşmasına töhfə verir.

Digər tərəfdən, bəzi valideynlər rus bölməsində təhsil alan şagirdlərin dil baryeri səbəbindən mövzuya tam hakim ola bilmədiyini və bunun onların təhsil keyfiyyətinə mənfi təsir etdiyini iddia edirlər. Onların fikrincə, Azərbaycan tarixi rus dilində tədris olunarsa, şagirdlər öz vətənlərinin tarixini daha dərindən və asanlıqla öyrənə bilərlər.

Bəziləri hesab edir ki, bu tələb dövlət dilinə qarşı hörmətsizlik kimi qəbul edilə bilər, digərləri isə valideynlərin hüquqlarının nəzərə alınmasının vacib olduğunu vurğulayır. Bu müzakirələrin qızışdığı bir vaxtda daha bir iddia ortaya atılıb. Bəzi valideynlər bildirirlər ki, yaxın gələcəkdə rus sektorunda tarix fənnindən başqa coğrafiya və ədəbiyyatın da Azərbaycan dilində tədris olunacağı barədə qərar veriləbilər.




SİA mövzu ilə bağlı araşdırma apararaq sosioloq və təhsil ekspertinin fikirlərini öyrənib.

Təhsil eksperti Rizvan Fikrətoğlu: "Rus sektorlarının tamamilə ləğv olunmasına ehtiyac olduğunu düşünmürəm. Amma bu sektorların məhdudlaşdırılması məqbuldur. O şərtlə ki, millilik, azərbaycançılıq məfkurəsi qorunsun. Məsələn, Azərbaycan tarixi kimi fənlər doğma dilimizdə tədris edilməlidir.

Ümumiyyətlə, insanda milli təəssübkeşlik, milli qürur olmalıdır. Öz dilini bilməyənləri qəbul edə bilmirəm. Vətənin çörəyini yeyib milli qürurun necə olmaya bilər? Azərbaycan dilini bilməmək, yad təsirlərə qurban etmək milli qürursuzluq, şüursuzluqdur. Dil bizim milli, mədəni varlığımızdır. Öz dilini bilməmək haradasa Vətənə xəyanətə bərabərdir. Öz dilində danışa bilmirsənsə, bu ölkədə nə gəzirsən, hansı vəzifəni tuta bilərsən? Bunu birmənalı şəkildə qəbul edə bilmirəm. Öz dilinə biganəlik qəbuledilməzdir. Dil vacib faktordur, təkcə ünsiyyət vasitəsi yox, kimlikdir, vətəndaşlıq pasportudur. Öz dilini yüksək səviyyədə bilməlisən. Əlavə dil bilmək çox yaxşıdır. Rus, ingilis, alman, hətta düşmən dili olan erməni dilini də bilmək yaxşıdır. Amma öz dilinə biganəsənsə, vətəndaş ola bilməzsən. Sənin milli qeyrətin ola bilməz".

Sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev: "Cəmiyyətimizdə ziyalıların, siyasətçilərin və tarixçilərin bu məsələyə yanaşması birmənalı deyildir. Ölkə olaraq taleyimiz elə gətirmişdir ki, Çar Rusiyası və Sovet İttifaqı dövrünü nəzərə alsaq, 200 ilə yaxın müddətdə ruslarla birlikdə yaşamışıq. Mərkəz Moskvadan ruslar tərəfindən idarə olunmuşuq və cəmiyyət olaraq uzun illər bizə vətəndaşlıq hüququ verilmiş, onlarla ailə qurmuşuq, zavodlarda, fabriklərdə birlikdə çalışmışıq. İstəsək də, istəməsək də artıq ortaq bəzi mental uyğunluqlar yaranmışdır. Hərçənd ki, biz müsəlman, Qafqaz xalqıyıq, amma qeyri-müsəlman ölkələri ilə müqayisədə bizə mental olaraq ABŞ və Qərb mədəniyyətindən daha çox rus mədəniyyəti uyğun olub. Ruslarla çoxəsrlik qonşuluğumuz olduğuna görə bəzi reallıqlardan asanlıqla qaça bilmərik. Bizim Rusiyaya şəxsi münasibətimizin necəliyindən asılı olmayaraq fakt olaraq qalır ki, biz bu millətlə coğrafi və geosiyasi vəziyyətimizə görə çox zaman birgə olmuşuq. Böyük dövlətlərin milli siyasətinin tərkib hissələrindən biri də onların tərkibində olan xalqların öz dillərində danışmasına sövq etməkdir. Bizdə də bu səbəb-



dən doğan zərurətdən dolayı rus dilində təhsil almışıq və bu dildə danışmağa meyl etmişik. Bu, çox normal bir haldır. Bir insanın əlavə dil bilməsi onun dünyagörüşünü artırır, ona müxtəlif ədəbiyyatları mütaliə etmək imkanı yaradır. Bir neçə dil bilən vətəndaş öz ölkəsinin dilini, tarixini, mədəniyyətini həmin dildə danışan xalqlara təbliğ etmək imkanı əldə edir. Bu səbəblərdən dolayı mən vətəndaşlarımızın ingilis, rus və digər dillərdə təhsil almalarının əleyhinə deyiləm. Bu, bizim vətəndaşlarımız üçün əlavə üstünlük deməkdir. Məsələ konkret olaraq məktəblərdə rus dilində tədrisə gəlincə, rus məktəblərinin artmasını istəməsəm də, mövcud məktəblərin bağlanmasının da tərəfdarı deyiləm. Çünki biz elə bir coğrafiyada yerləşirik ki, həm siyasi, həm də tarixi baxımdan bu dildə təhsil almağı lazımlı hesab edirəm. Lakin bu, o demək deyil ki, rus dilində təhsil alan şagird milli və dini kimliyini unudub, öz mədəniyyətindən uzaqlaşmalıdır. Valideynlər mütləq bu məqama diqqət etməlidirlər. Rus dilində təhsil alan övlad öz milli və dini kimliyini unutmasın, ondan



aralı düşməsin, öz mədəniyyətini öyrənib ona sahib çıxsın. Belə olduğu halda, istər rus, istərsə də digər dillərdə təhsil almanın heç bir problemi yoxdur. Vətəndaşlarımızın bir neçə dildə danışması bizim üstünlüyümüzdür. Bu gün dünyada iqtisadi zərurətdən dolayı xeyli uşağımız Çin dilini öyrənməyə yönəlir. Valideynlər sırf iqtisadi düşünürlər və bu dilin gələcəkdə övladlarına fayda verəcəyi qənaətindədirlər. Amma bu, o anlama gəlməz ki, biz dil ilə yanaşı, Çin mədəniyyətini də mənimsəməliyik və ya milli və dini kimliyimizi unutmalıyıq. Əksinə, yeni dil öyrənmək öz mədəniyyətini, dilini, milli və dini kimliyini təbliğ etmək üçün siyasi bir vasitə kimi dəyərləndirilməlidir. Bütün bunları yekunlaşdıraraq, mən rusdilli məktəblərin sayının artırılmasının və mövcud olanlarının bağlanmasının əleyhinəyəm. Əslində, bir dilin geniş yayılması tələbat nəticəsində əmələ gəlir. Xarici dillərin insanların milli kimliklərinə mənfi təsir etməsinin qarşısını almaq üçün Azərbaycan dilinin rolunu artırmaq lazımdır. Azərbaycan dili ölkəmizdə bütün qardaş xalqların ortaq dəyəri və üsniyyət dilidir".

***Söylü Ağazadə***

# Ana dilimiz varlığımız, qürurumuzdur!




Hər bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşı olan dili kimliyimizi təsdiq edir. Fevralın 21-i bütün dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib. Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsini bir daha insanların xatirəsində canlandırır. Dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana Dili Günü insanlara öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır.

Bizim ana dilimiz vüqarımızdır, tariximiz, keçmişimiz, bu günümüz və gələcəyimizdir. Bu günə qədər tarixi reallıqlar deməyə əsas verir ki, çox ziddiyyətli yollar keçmiş Azərbaycan dili öz zənginliyini və saflığını qoruyub-saxlamışdır. Belə ki, Azərbaycan dili ərəb istilası dövründə iki əsr əsarət altında olmuş və bu baxımdan da, dilimizə ərəb-fars mənşəli sözlər daxil olmuşdur. Ərəb əlifbası dəyişdirildikdən sonra latın qrafikasına keçsək də, bu, uzun sürməyən bir proses olmuşdur. Belə ki, sovet imperiyasının Azərbaycanda hökmranlığı, sözsüz ki, öz təsirini göstərməyə bilməzdi. Rus şovinizminin təsiri nəticəsində, əlifbamızın dəyişməsi, kiril əlifbasına keçid, ana dilimizin zəifləməsinə gətirib çıxardı, saflığına və təmizliyinə mənəvi təsir göstərdi.

Belə ki, ərəb-fars mənşəli sözlərlə zəngin olan ana dilimiz rus mənşəli sözlərlə bir qədər zəifləməyə başladı. Onu da, qeyd edək ki, bu proseslər dilimizə nə qədər təsir etsə də, digər tərəfdən, Azərbaycan ziyalılarının dilin saflığı və təmizliyi uğrunda mübarizəsi, ana dilimizin qorunmasına yönəldilmişdir. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində dil uğrunda mübarizə daha da sürətləndi. Dilin təmizliyi istiqamətində çox ciddi addımlar atılmağa başlandı.

## "HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI, HƏR BİR AZƏRBAYCANLI ÖZ ANA DİLİNİ, AZƏRBAYCAN DİLİNİ VƏ DÖVLƏT DİLİNİ MÜKƏMMƏL BİLMƏLİDİR"

1969-cu ildən başlayaraq, Azərbaycan dili sahəsində aparılan islahatlar öz nəticəsini verməyə başladı. Ümummilli Lider Heydər Əliyev ana dilinin saflığının qorunması üçün mühüm addımlar atdı. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini və dövlət dilini mükəmməl bilməlidir", - deyən Ulu Öndər Heydər Əliyev dil uğrunda mübarizədə qətiyyət və prinsipial mövqedən çıxış edirdi. 1978-ci ildə SSRİ rəhbərliyi milli dəyərlərə, dilə birmənalı yanaşdığı halda, Ümummilli Liderin qətiyyəti və məntiqi nəticəsində, Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edildi. Bu, dilimizə qarşı olan tələbkarlıq idi. Onu da bildirək ki, həmin illərdə Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb.

Tarixi dövrləri ardıcıllıqla nəzərdən keçirsək görərik ki, müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də Referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə, bilavasitə bağlıdır. İmperiya dövründə ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu və cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə, müvafiq qanun qəbul olunması ilə nəticələndi. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günü kimi qeyd olunması ilə bağlı 9 avqust 2001-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Fərman imzalandı. Ümummilli Lider Heydər Əliyevin imzaladığı sərəncamlar əsasında Azərbaycan dilinin təkmilləşməsinə, onun inkişafına yol açıldı.

## "MƏN ÖZ ANA DİLİMİ ÇOX SEVİR VƏ BU DİLDƏ DANIŞMAĞIMLA FƏXR EDİRƏM"

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub. "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən Mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm", - deyə Ümummilli Lider Heydər Əliyev bildirirdi.

Bu sahəyə aid digər sərəncamlar ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü dil siyasəti Azərbaycan dilinin inkişafına öz töhfələrini verir. Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında", eləcə də, "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" sərəncamları Azərbaycan dilinin inkişafı istiqamətində növbəti addımlar oldu.

## MİLLİ ŞÜURUN VƏ MİLLİ KİMLİYİMİZİN FORMALAŞMASINDA MÜHÜM AMİL

Hər bir sahədə çalışan insan dilin qayda-qanunlarına əməl etməyə vətəndaş olaraq borcludur. Azərbaycan milli mətbuatında dil məsələsi aktual olan mövzulardandır. Dilin qorunması, işlənməsi, yad ünsürlərdən mühafizəsi, danışıq dilində sözlərin tələffüzü və digər məsələlər vacib hesab olunur. Söz fikrin gerçəkliyinin ifadəçisidir. Mətbuatda informasiya dil və söz vasitəsilə çatdırılır. Jurnalist peşəkarlığının əsas elementlərindən biri dildən istifadə ilə bağlıdır. Fikrin aydın və lakonik şəkildə çatdırılması, yeri gələndə, nitqdə hiss-həyəcan və emosiyanın duyulması, bəzən kəskinliyin, sərtliyin görüməsi - bütün bunlar jurnalist üçün vacib hesab edilən amillərdir. Azərbaycan mətbuatının Həsən bəy Zərdabidən və "Əkinçi"dən qalan zəngin ənənələri vardır. Bu ənənələr "Əkinçi" ətrafına toplaşanlar, habelə, sonrakı nəsil qələm sahibləri tərəfindən daha da zənginləşdirilib. Yetmiş illik sovet dövründə mətbuatımız kommunist ideologiyasına xidmət göstərsə də, yenə inkişafdan qalmayıb, böyük peşəkar jurnalistlər dəstəsi yetişib. Dilin saflığı, səlistliyi uğrunda mübarizəyə qoşulan Həsən bəy Zərdabi və onun silahdaşlarının ənənəsi milli mətbuatda qorunmalıdır. Xalq şairimiz Bəxtiyar Vahabzadənin poetik dili ilə desək,

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu Tarixi varaqlanır,
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan- şöhrətim saxlanır.
Mənim adım-sanımsan,
Namusum, vicdanımsa

Dil hər bir millətin varlığını ifadə edən, maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən vasitədir. Dil ünsiyyət vasitəsidir. Dil milli şüurun və milli kimliyimizin formalaşmasında mühüm amillərdən biridir. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır. Xalqımızın ən zəngin milli-mədəni irsi onun adət-ənənələri, mədəniyyəti, tarixi və dilidir. Bu əsasda formalaşdırılan milli-mənəvi dəyərlər sistemi zaman-zaman qorunub-saxlanılmış və bu günümüzə qədər gəlib çatmışdır. Bizim ən müqəddəs borcumuz Azərbaycan dilini daha da zənginləşdirib, inkişaf etdirməkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***



## Səndən doğma bir dil varmı bu dünyada?

**MƏTANƏT**

Göz açıram dünyaya mən: bura hara? Azərbaycan. Layla çalır başım üstə müqəddəs bir varlıq olan anam mənim, layla çalır ana dilim. Yuxularım yoğrulur bu şirin dildən. Bədənimə dolur bənzərsiz bir sevgi, istək ana dildə: " Laylay dedim yatasan sən, şirin yuxu tapasan sən "

Günlər keçir Ana dilim hopmuş sözlər mənə duyğu, qanad verir. Böyüyürəm, ana dilim yavaş-yavaş öz dilimdə səslənir, bax: "A" deyirəm, sonra da ki, "N" deyirəm. Anam bir gün sevincindən şaşıb qalır: balam "ana" söyləyir ki! Sonra isə yavaş-yavaş danışıram, Azərbaycan deyirəm, ana dilim Azərbaycan dilində.

Aylar keçir Ana dildən ilham alıb, qol-qanad açıram mən, böyüyürəm, oynayıram, uşaqları çağırıram ana dildə. Söhbətləşib, gəzişirik şirin dildə. Bir-birimizi başa düşür, hiss edirik ana dildə.

İllər keçir Boya-başa çatmışam mən. Altı yaşlı bir fidana varmışam mən. Budur, bu gün bir Azərbaycan məktəblisi olmuşam mən. Yollanıram sevinclə mən, tələşlə mən, ana dildə daha nələr öyrənməyə Günlər keçir Evdə anam, məktəbdə müəllim əllərimdən tutur mənim. Bax, bu nədir, bu gün mənə verdi müəllim? "Əlifba"dır. İlk hərfi öyrənirik. O, "A"-dır, ana dilim Azərbaycan, doğma Vətən Azərbaycan bu hərflə başlayır ki! Günlər keçir, aylar ötür Ana dildə "A"-dan "Z"-yə "Əlifba"nın hərflərin öyrənirəm. Ana dildə nağıllar, hekayələr, rəvayətlər oxuyuram. Çoxlu şeir, nəğmələr də öyrənirəm. Azərbaycan-odlar yurdum, göz bəbəyim, ürək param söyləyirəm. Ana dildə "Əlifba"dan gör bir nələr öyrənirəm?

İllər ötür, ana dilim-doğma dilim, şirin dilim, bağlanıram bir qırılmaz tel ilə mən, sənə dilim. Çünki hər kəslə bu dildə dil tapıram. Ana, ata məhəbbətin mən bu dillə qazanıram. Dost tapıram ana dildə, ürək açıb, sirr verirəm ana dildə. Oxuyuram, sual verib, cavab alıb, elmləri əxz edirəm ana dildə, böyüyürəm şirin dildə.

Azərbaycan- ana dilim, indi varlığıma hakimsən. Sənlə yoğrulan bədənin sənlə ötən illərisən. Bu illərdə ana dilim-şirin dilim, gör, mənə nələr öyrətmisən? Dərk edərək həyatı mən yetkinləşdiyim andan səndən qeyri özüm üçün heç bir həmdəm tanımıram. Anam mənim, Azərbaycan, doğma Vətən, Azərbaycan, şirin dilim, Azərbaycan. Sənlə qürur duyuram mən. Sənə bağlı olduğumçün səndən ayrı yaşamağı heç bir zaman sanmıram mən. Buna görə ana dilim, doğransam da dilim-dilim, başqa dilə dönən deyil. Şirin laylanla oxşayıb böyütdün axı bizləri sən. Bundan sonra haqqım nədir səndən qeyri bir dilə mən dönüb baxam. Yəni səndən şirin, səndən doğma bir dil varmı bu dünyada?

# QANIMIZLA YAZMIŞIQ, HƏYAT KODEKSİMİZİ



**Valeh Sefiyev**

*("Zəfər Dastanı" poemasından)*

44 günlük o döyüş....
İgidlərin ölümü
Bizi yaman incidir,
Bizi yaman ağrıdır.
...Analar əzizimiz,
Dinimiz, imanımız;
Gözümüzün işığı,
Ürəyimiz, canımız.
Ən çox yanan, qan olan
Qovrulub, büryan olan
Anaların bağrıdır.
Bir gecənin içində
Analar neçə dəfə
Ağır yuxular görür:
Görür, oğlu can verir!-
Yuxusu qara gəlir ;
Öz qara yuxusunda
Analar fikrə gedir,
Yəqinlik hasil edir,
Qəti qərara gəlir :
- Oğulların ölümü
Həqiqidir, doğrudur !
Analar bu yuxuya
İnanmaq istəmirlər.
Tez, hövlnak oyanıb,
Sağa, sola boylanıb,
Oğul da gözləmirlər.
Haldan-hala düşürlər:
Huş aparır, yatırlar.
Analar yuxuda da
Dərdə, qəmə batırlar.
...Bir dərd səni oxşasın,
Əzizləsin ölüncə. –
Insan necə yaşasın?
Bundan artıq işgəncə?!..
Nələrə dözmür insan?!..
Haqdan, haqq dərgahından
Biz daha nə istəyək?
Nə təmənna eləyək?!..
"...Barılar söküləcək,
Saraylar tikiləcək.
Ölməyib, mənim oğlum
Arxayınam gələcək.
Xonça bəzəyəcəyəm,
Onu gözləyəcəyəm.
Mən elçi gedəcəyəm.
Oğlumu nişanlayıb
Toyunu edəcəyəm.
Gəlin gətirəcəyəm.
Mən nəvə görəcəyəm,
Nəvə böyüdəcəyəm.
Bir anda neçə dəfə
Onu bağrıma basib
Oxşayıb öpə-öpə:
"Mübarək qədəminə
Qurbanam!"-deyəcəyəm.
Mən nəvə görəcəyəm,
Oğlum "Ata!" olcaq.
Nəvə böyüdəcəyəm,
Evim nurla dolacaq ..."
... Xəyal edir analar.
Məlal edir analar.
Bu yollarda, izlərdə
Əlimiz çatmır elə.
Göy gurlayır, ün düşür,
Ömür qurtarmır hələ.
Ovsunlanıb elə bil, -
Günlər, aylar ötüşür,
Dolaşır, düyün düşür,
Saya, hesaba gəlmir.
Damarında qan donur.
Kirpiyinə şeh qonur. –
Analar yasda, toyda
Hey düşünür, daşınır,
Ürəyinə bir an da
Dinclik, toxtaqlıq vermir
Iynənin ucu boyda
Ümid işığı görmür,

Təsəlli tapa bilmir.
...Qış keçib, gəlib bahar,
Ömür sürməyə nə var?!..
Ancaq bizim Analar
Şəhid balalarını

Unuda bilmirlər ki!
Nə üçün ağlayırlar? –
Onu da bilmirlər ki!
Bu gün belə olurlar,
Sabah elə olurlar.
Şirin yuxu bilmirlər,
Oturub dincəlmirlər.
Analar yaşamır ki!..
Onlar ayaq üstədir.
Onların gözü yolda,
Qulağı da səsdədir ...

***

... Çox əzablar çəkmişik,
Büruzə verməmişik,-
Qəlbimizdə ağlayıb,
Qəlbimizdə çökmüşük.
İkibaşlı qartalın
Sinəmizdə oturub
Canımızı diddiyi,
Qanımızı içdiyi
O dəhşətli zamanlar...
Qanlı 20 Yanvar !..
"Şanlı", "böyük", "qüdrətli",
"Möhtəşəm", "əzəmətli"
İmperiya "işığına" –
Bir bayrağın altında
Ayrı-ayrı millətlər,
Xalqlar "qardaşlığına"
Itən inam, etibar.
Əbədi damğalanan,
Puç olan etiqadlar;
Ürəyimizdən qopan
Nifrət saçan fəryadlar...
Əlacımız nə idi? –
O dar gündə haraya
Əlimiz çatırdı ki ?
Dünya namərdləşmişdi!
Kim yetişdi harya ?
Qanımız batırdı ki!..
Alnımız qırış-qırış,
Başımız aşağıydı.
Kökündən yox olurduq!
Qəzəbdən boğulurduq,
Qisas ala bilmirdik –
Nəfəs ala bilmirdik,
Çatmırdı havamız da;
Şöhrəti, şanı ilə
Dünən öyündüyümüz,
Haqq-ədalət əhdinə
Çox, çox güvəndiyimiz,
Başına döndüyümüz,
Çiyni Ağ göyərçinli
"Qızıl" Moskovamız da
Bu gün qan çanağıydı.
Yaxşı-yaman günlərdə
Qol-qola gəzdiyimiz,
"Can!" deyib, "can!" eşidib
Duz-çörək kəsdiyimiz
Qardaşımız deyildi,

Sirdaşımız deyildi;
Üstümüzə tank sürən,
Qoşun çəkən, yeriyən,
Gözünü qan bürüyən
Qatı düşmən, yağıydı.
Uşaq-böyük bilmirdi,
Yetəni haqlayırdı. –
Günahsız insanları,
Silahsız insanları
Avtomatlar biçirdi,
Tanklar ayaqlayırdı.
Bu necə vicdansızlıq,
Amansız qərar oldu?!..
Bu gen, işıqlı dünya
Başımıza dar oldu
Yaralı Aslan kimi
Yaladıq qanımızı.
Bir yer tapa bilmədik
Qoymağa canımızı.
Gərildi əsəbimiz!..
Qismətimiz beləymiş,
Bu imiş nəsibimiz.
Indi necə barışaq?
Necə qaytarmaq olar
O ruhu, o inamı?!..
Xalqımın haqq səsinə
Bir bayrağın altında
70 illik dostluğun,
Qardaşlığın "sovqatı",
"Hədiyyəsi", "ənamı"
Qırğın oldu, qan oldu.
Bakımızın ortası
Şəhidlər Xiyabanı –
Bir məzaristan oldu.
... Köhnə dostlar, qardaşlar!
Silahdaşlar, sirdaşlar! –
Qanımızla yazmışıq
Həyat kodeksmizi.
Yaxamızdan əl çəkin,
Rahat buraxın bizi,
Qolumuza girərək,
Qardaş!.. Sirdaş!.. deyərək
Bizə az tumar vurun,
Az çəkin bu sığalı!
Çəkdiyimiz müsübət
Olmadımı yetərli,
Etmədimi kifayət?!..
Yəni yenə döğranaq,
Ayaqlanaq, budanaq?!..
Bəlkə bir az çəkinək,
Həya edək, utanaq,
Lal olaq, danışmayaq
Bu barədə, bu haqda?!..
Çöx görmüşük bu saxda
Mehri, mehribanlığı,
Nəvazişi, qılığı,
Təşəkkürü, "sağ ol!"u.
...Ruhumuzu sarsıdan
Məhrumiyyətlər dolu
İllər keçib aradan.
Heç ağıla gəlməyən,
Sərhəd, hüdud bilməyən
Erməni barbarlığı...
Erməni murdarlığı...
Xocalıdan bu yana
Yuxum ərşə çəkilib.
Sakit dura bilmirəm,
Dinc otura bilmirəm.
Yuvasız bir qartalam,
Yuva qura bilmirəm -
Qəzəbim aşıb-daşır.
İndi zaman başqadır.
İndi dövran başqadır.
Düşmən üçün qorxudur,
Vahimədir kölgəmiz.
Turan kitabımızda -

Bizim hesabımızda
Hər doğulan körpəmiz
Beşik yaşında belə
Qəhrəman, qədd-qamətli,
Tufanlı, cəsarətli
Qeyrət çəkən kişidir.
Xəbər çatıb mənə də
Qulaqlarım eşidir :
Bizim Turan elində
Çoxdan yada düşməyən,
Köhnəlmiş, unudulmuş
Bir söz-söhbət dolaşır. -
Qızışır, tüğyan edir.
Dünyanı silkələyir. -
Yapışıb yaxasından
Bir dön geri bax deyir.
Gizlin söhbətimiz yox.
Ucuz qeybətimiz yox.
Üz-üzə dayanmışıq,
Göz-gözə dayanmışıq.
Bu elin, bu obanın
Mən də bir yazan əli,
Aydın danışan dili.
Dünya, sözüm sənədir :
- Bizi, özünü tanı !
Etibar, vicdan hanı ?
Bu namərdlik, nankorluq,
Bu kəmfürsətlik nədir ?
Bu biqeyrətlik nədir ?-
Qəzəbim aşıb-daşır.
Bizim Turan elində
Bir söz-söhbət dolaşır.
Qızışır, tüğyan edir,
Silahlı üsyan edir:
- Deyirlər, Əmir Teymur
Buralardan keçəndə,
Dəstəmazını alıb,
Namazını da qılıb,
Kefi kök, damağı çağ
Bulaqdan su içəndə,
Erməni casusundan
Necə murdarlıq görüb,
Bütün ermənilərin
Qətlinə fərman verib.
Əmirin qərarından
Göylər də razı qalıb.
Yer üzünə, dünyaya
Gur işıq, nur ələyib.
Əmirin öz anası
Ordunun qabağında
Ləçək açıb Əmirdən
İnsaf, imdad diləyib.
Türk oğlu anasının
Sözünü, ricasını
Göylərdən, səmalardan
Aşağı endirməyib –
Ananı sındırmayıb.
Bunu öz qüdrətinə,
Şanına, şövkətinə,
Hökmdar qüruruna
Əmir yaraşdırmayıb. -
Murdar ermənilərin
Hamısını qırmayıb
...Avropalı cənablar!..
Yuxumuzda görürük
Yaşadığımız dünya –
Ərz əmin-amanlıqdır!..
Şirindirmi bu xülya?
Avropalı cənablar!
Duyuram, sizin üçün
Çox suala cavablar
Hələ də qaranlıqdır.
Tarixin sərt qanunu
Ilgəyində saxlayıb
Hamımızın boynunu.
Batırıq iynə kimi

O xayin gözünüzə -
Kitablar açıb, sizə
Vicdan dərsi veririk.
Yaşamaq öyrədirik,
Döğru yol göstəririk.
Bəli, o vaxt, o zaman
Mənfur ermənilərin
Kökünü kəsmək üçün
Yaxşı fürsət olubdur,
Əfsus, güzəşt olubdur!..
Unutmayın bir an da :
Kim idiniz siz onda?!..
Avropalı cənablar!
Biz yaxşı tanıyırıq
Kimin kim olduğunu.
Kim dana bilər bunu? –
Eraları titrədən,
Dünyanın bu başından
O başına əzmlə
Qoşun çəkən, yeridən
Əcdadımız, kökümüz;
Aydan arılığımız,
Sudan duruluğumuz,
Dağdan ağırlığımız,
Nüfuzumuz, çəkimiz;
Bu şan, bu şövkət ilə,
Bu güc, bu qüdrət ilə
Namərdlik etmirik biz,
Fitvaya getmirik biz.
Uymayıb cəhalətə, –
Hər xalqa, hər millətə
Xoş günlər diləyirik.
Ancaq bir türk olaraq
Etiraf eləyirik:
- Biz yaranandan bəri, -
Xəlq olunandan bəri
Kin, nifrət bilməmişik,
Ədavət bilməmişik.
Xəyanət bilməmişik.
Olmamışıq nainsaf,
Yaşamışıq təmiz, saf !
Bağışlamaq, rəhm etmək!..
Düşmənlə də dil tapıb,
Yol tapıb yola getmək!..
Xeyrə-şərə yanaşı.
Birgə, qol-qola getmək!..
Bağışlamaq, rəhm etmək!..
...Bu gün özüm özümlə
Haqqım var hesab çəkim.
Bütün varlığımıza,
Mənliyimizə hakim
Könül rahatlığımız,
Bizim ruhumuz budur.
"Bəşəri günahımız" –
Qaranlıq sabahımız,
Sağalmayan yaramız,
Acı, bəd rüzgarımız,
Qara yuxumuz budur.
Söhbət budur, söz budur
Döğru budur, düz budur.
Bu eşq, bu amal ilə
Gedirik bu yol ilə.
Düşsək də min bəlaya,
Şükür sənə, Xudaya! –
Imdadımıza çatıb –
Kömək əli uzadıb
Yapışıb qolumuzdan
Saxlama yolumuzdan,
Çox xahiş eləyirik
Sənin saxavətindən,
Sənin kəramətindən
Bu gün də biz hamımız
Qocamız, cavanımız
Haqqa, firavanlığa,
Bəşərə, insanlığa
Sitayiş eləyirik...

# İrəvanın Avropa xəyalları və ERMƏNİSTAN ÜÇÜN RİSKLƏR




**Ermənistan guya ki, Avropa İttifaqına mümkün üzvlük mövzusunda "siyasi fəallıq" nümayiş etdirir. Həmin ölkənin parlamentində Aİ-yə inteqrasiya prosesinin başlanmasına dair qanun layihəsinin müzakirəsi məsələnin referenduma çıxarılması üçün 60 min imza toplayan qərbyönlü partiyaların təşəbbüsü bəzi məqamlardan xəbər verir. Bununla belə, müzakirələrin "mahiyyəti" ilə bağlı məntiqi suallar yaranır. Həmin suallar da təsdiq edir ki, reallıqda ortada olan məhz İrəvanın Avropa ilə bağlı xam xəyallarıdır və əslində, Ermənistan üçün böyük risklər deməkdir.**

## Ermənistanın təkcə Avropa İttifaqına yox, hansısa ittifaqa qoşulmaq istəyi xam xəyallardır

Avropanın indiki siyasi və iqtisadi durumunda xam xəyallardan doğan bu cür təşəbbüslər daha çox Brüssel üçün heç bir əhəmiyyət kəsb etməyən "küçə asöhbətlətini" xatırladır. Hətta onilliklər ərzində "Avropa qatarını" gözləyən ölkələrin də üzvlük prosesinin onsuz da ləng getdiyini nəzərə alsaq, belə qənaətə gəlmək olur ki, Avropa İttifaqı nəinki yaxın illərdə, ümumiyyətlə, Ermənistanın "həmin müstəviyə" inteqrasiyası istiqamətində qətiyyən ciddi addımlar atmayacaq. Məhz bu baxımdan da hayların Avropa İttifaqına "qaynayıb qarışmaq" mənasında uydurduqları ancaq "küçə söhbətinə" bənzəyir. Xüsusən də "arada" Rusiya boyda bir "maraqlı oyunçu" olduğu halda, Ermənistanın təkcə Avropa İttifaqına yox, hansısa ittifaqa qoşulmaq istəyi xam xəyallardır.

Diqqətə çatdıraq ki, Rusiya artıq bu məsələ ilə bağlı qətiyyən mövqeyini gizlətmir. Xüsusən də, baş nazirin müavini Aleksey Overçukun birbaşa bəyan etdikləri Kremlin mövqeyinin nədən ibarət olduğunu göstərir. Beləki, əgər Overçuk bəyan edibsə ki, Ermənistanın Aİ-yə doğru addımları Avrasiya İqtisadi İttifaqından (Aİİ) mümkün çıxmaq siqnalı kimi qəbul edilir, deməli, rəsmi Moskva artıq Ermənistanla bağlı kəskin mövqeyə sahibdir. Belə bir mövqe isə Ermənistan üçün iqtisadi baxımdan əsl fəlakət deməkdir. Xatırladaq ki, Aİİ ilə ticarət 2024-cü ildə Ermənistanın xarici dövriyyəsinin düz 42%-dən çoxunu təşkil edib. Amma Aİ ilə bu rəqəm uzaq başı 7,5%-ə çata bilər. İrəvan üçün Aİİ kritik üstünlüklər, o cümlədən rüsumsuz ticarət və güzəştli enerji təchizatına çıxış imkanlarıdır. Amma yenə də öz düşünülməmiş, uğursuz tərzi ucbatından həmin ölkə özünü uçuruma doğru sürükləyir. Ən azından bunun Ermənistan üçün risk olduğu təkzib edilə bilməz.

## İmkanlar, güzəştlər itirilə bilər və belə olan halda, Ermənistan kəskin bahalaşma ilə üzləşəcək

Bilirik ki, Rusiya Ermənistana təbii qazı güzəştli tariflərlə verir. Onu da bilirik ki, bu da əhali və sahibkarlar üçün qiymətləri məqbul səviyyədə saxlamağa imkan verir. Məsələ burasındadır ki, Ermənistan Aİİ-dən çıxacağı təqdirdə bu üstünlüklər, imkanlar, güzəştlər itiriləcək. Belə olan halda isə həmin ölkə yanacağın və elektrik enerjisinin kəskin bahalaşması ilə üzləşəcək. Eyni zamanda, ərzaq idxalı ilə bağlı da işğalçı ölkədə oxşar vəziyyət yarana bilər. Ermənistan Aİİ ölkələrindən, ilk növbədə Rusiyadan əhəmiyyətli həcmdə buğda və digər kənd təsərrüfatı məhsulları idxal edir ki, bu da güzəştli şərtlərlə həyata keçirilir. Bu əlaqələrin pozulması gömrük rüsumlarının tətbiqinə və mütləq şəkildə əsas malların qiymətinin artmasına səbəb olacaq.

Şübhəsiz ki, Avropa iqtisadiyyatının özü belə özünün ən yaxşı dövrlərindən artıq çox uzaqdadır. Statistik göstəricilərə görə, 2024-cü ildə Avrozonada ÜDM artımı cəmi 0,7% olub. Hətta son rübdə artımın sıfır həddi qeydə alınıb. Nəzərə almaq lazımdır ki, AB-nin əsas "iqtisadi mühərriklərindən" biri olan Almaniya ikinci dəfədir ili artım olmadan başa vurur. Məhz Fransanın özünün belə 2025-ci il üçün proqnozları 1%-dən azdır. Yüksək enerji qiymətləri, Çin və ABŞ-ın artan rəqabəti və daxili siyasi qeyri-sabitlik Aİ üçün problemlər yaratmaqda davam edir. Bütün bunların fonunda Ermənistan hələ də nəyə isə ümid edirsə, böyük yanlışlıq edir. Doğrudur, Aİ xülya olaraq başa düşülür, amma reallıq olsa belə Ermənistan üçün risklər deməkdir.

## Avropa Birliyinə inteqrasiya istəyi növbəti uğursuzluq olaraq haylara çox baha başa gələcək

Bir çox məqamları təhlil etdikdə görürük ki, Ermənistanın Avropa Birliyinə inteqrasiya istəyi sadəcə olaraq, növbəti uğursuz addımla bağlı arzudan ibarətdir. Bəlkə də, Ermənistan hakimiyyəti məsələnin mahiyyətini, risklərin nədən ibarət olduğunu anlaya bilmir, amma bununla belə həmin istək, Aİ ilə bağlı xəyallar, yumşaq desək, axmaqlıq kimi görünür. Hələ də bundan sonra mövcudluğu sual altında olan bir ölkənin, səfalət içərisində olan Ermənistanın özünə "macara axtarmaq" həvəsi haylara çox baha başa gələ biləcəyini belə görünür ki, erməni baş nazir Nikol Paşinyan da, onun hakimiyyət komandası da başa düşə bilmir və növbəti uğursuzluq kimi bunu da erməni tarixinə yazmaq niyyəti var.

Avropanın özünün böhran dövrünü yaşadığı günümüzün reallığıdır. Məhz belə reallıq fonunda, uzun müddətdir ki, üzvlük üçün gözləyən ölkələrin inteqrasiyadan imtina edildiyi bir şəraitdə İrəvanın son dərəcə qeyri-müəyyən perspektivləri olan layihəyə "həvəslənməsi" yaxşı halda uğursuzluq adlandırıla bilər. Bəllidir ki, belə addımların atılması reallıqda Ermənistan üçün nəinki iqtisadi dividentlər gətirməyəcək, hətta ölkə daxilində vəziyyətin daha da pisləşməsinə gətirib çıxaracaq. Bax elə ən böyük risk budur. Ermənistan siyasi vədlərdən başqa heç nə almayacaq və bütün bunların fonunda da Aİİ daxilində mövcud imtiyazlarını da itirmək riski ilə üzləşməli olacaq. Bəli, İrəvanın Avropa xəyalları Ermənistan üçün böyük risklər deməkdir...

*İnam Hacıyev*

ARAŞDIRMA

# Qida terroru nədir, necə aparılır?

İnsan sağlamlığına birbaşa zərər verən qidalar süni hazırlanan, tərkibində qatqı maddələri olan qidalar, radiasiyalı kənd təsərrüfatı məhsulları, saxta içkilər və s. qidalardır. Yaşamaq üçün bizim qidaya ehtiyacımız var. Qida, su könüllü istehlak məhsulları deyil, zərurətdir. Bizi sağlam qocaldan, tərkibində karbohidratlar, zülallar, vitaminlər və minerallar olan qidalardan gedir söhbət. Lakin bu gün bizə, tərkibində bütün riskləri ehtiva edən, bakteriya, göbələk, virus, parazit, mikotoksin və GMO kimi zərərli tərkibdə olan, şüşə, metal, plastik, daş, yad cisim, radiasiya kimi təhlükələri özündə gizlədən, pestisidlər, baytarlıq dərmanları, hormonlar, sənaye zəhərlənmələrinə məruz qalan qidaları satırlar. Başqa sözlə, biz həyatda qala bilmək üçün pul verib qida aldığımızı zənn edirik, lakin zərərli maddələrlə zəngin zəhər almış oluruq.




Qida terroru o qədər geniş bir mövzudur ki, bütün istiqamətləri bir yazıya sığışdırmaq mümkün deyil. Tərkibində xərçəngə səbəb olduğu sübut edilən maddələr olan və süni yaradılan qidalar son illər ən çox yayılmış qida terroru üsuludur. Xüsusilə uşaq qidaları, düyü, radiasiyalı kənd təsərrüfatı məhsulları, saxta alkoloqlu içkilər bu qəbildəndir. Kənd təsərrüfatı məhsullarının məhsuldarlığını və keyfiyyətini artırmaq üçün istifadə edilən hormonlar, kimyəvi dərmanlar sağlamlığa zərər verən, kanserogen maddələr də insan sağlamlığı üçün ciddi təhlükədir.

### Hər gün 2000 növ qatqı maddəsi qəbul edirik

Qablaşdırılmış qidalarla bağlı ən böyük mübahisə sağlamlığa bir təhlükəsinin olub-olmaması ilə bağlıdır. Bu qidalar çox vaxt maddələr mübadiləsinə, immun sistemimizə və genetikamıza ciddi təsir göstərir. Bir qisim bu qidaların son dərəcə sağlam olduğunu düşünür, digər tərəf isə onların tərkibinə qatılan konservantların son dərəcə zərərli olduğu qənaətindədir. İstehlak edəcəyimiz hər bir hazır məhsulun qablaşdırılması diqqətlə araşdırılmalıdır. Qablaşdırmanın açılmaması, köhnəlməməsi və deşilməməsi çox vacibdir, əks halda çox ciddi zəhərlənmə halı - botulizm baş verər ki, əksər hallarda nəticəsi ölüm olur. Qida sənayesində hər il minlərlə məhsulun tərkibində olduqca çox çeşiddə qatqı maddəsi istifadə olunur. Hal-hazırda insanlar hazır qidalar vasitəsi ilə gündə təxminən 2000 növ kimyəvi qatqı qəbul edirlər. Dadlandırıcılar, ətirləndiricilər, qatılaşdırıcılar, ağardıcılar, rəng qoruyucuları, köhnəlmə əleyhinə maddələr, nəmləndiricilər, boyalar, aromatlarlar və s. Yəni yediyimiz hər hazır qidanın tərkibində saysız-hesabsız qida əlavəsi var deyə bilərik.

Qida sənayesi, məhsulların qablaşdırılmasında istifadə olunan bu əlavələri məhsulun üzərində göstərməlidir. Ancaq buna nə qədər əməl edilir, burası mübahisəlidir. Gəlin, ən sadə misal çəkək - saqqız. Kiçik bir məhsulun tərkibində nələr var, sayaq. Ən birinci dadlandırıcılar - şəkər xəstəlinə meyillilik yaradır, beyin fəaliyyətini pozur, başağrısı, başgicəllənmə və huşunu itirməyə, dodaqlarda, dildə və ayaqlarda şişməyə səbəb olur. ”Aspartam” dediyimiz maddənin tərkibində ”fenilalanin” adlı bir amin turşusu var. Bu, uşaqlarımızın inkişaf edən reproduktiv orqanlarına və beyinlərinə zərər verir. Bununla belə, sonsuzluq və əqli gerilik də yaradır. Aromat üçün vurulan maddələr də var ki, nanotexnologiya və gen texnologiyası ilə istehsal edilən bu aromatlar bədən-ruh balansı ilə yanaşı hormonal tarazlığa da təsir göstərir. Nəmləndirici - qliserinlər isə qəssabxana tullantılarından əldə edilir. Qısası, 2,5 qramlıq saqqızda 18 qatqı maddəsi var.



Kiçik, sadə bir saqqızın tərkibində bu qədər zərərli qatqı varsa, digər məhsulları da təsəvvür etmək çətin deyil. Bəzən istehsalçılar qida əlavələrinin tərkibində zərərsiz və hətta faydalı maddələr olduğunu deyirlər. Bu gün qatqı maddələrinin müxtəlif üsul və texnologiyalarla istehsal olunduğunu nəzərə alsaq, onların istehsal üsullarının, kimyəvi tərkibinin o qədər də etibarlı olmadığı göz qabağındadır. Məsələn, ”karoten” A vitamininin təbii mənbəyidir. Təbii bitki piqmentlərindən əldə edilməlidir. ”Betanin” qırmızı çuğundurdan alınır. 25-30 il əvvəl təbii bitkilərdən əldə edilən bunların hər ikisini etibarlı hesab etmək olardı, amma o zamanlar üçün. Lakin zaman keçdikcə yeni üsul və texnologiyadan istifadə edildikdən sonra bu əlavələr əsasən GMO bitkilərdən daha ucuz yollarla istehsal olunur. Hətta qablaşdırmanın üstündə inqrediyentlər qeyd olunsa belə, məhsulda istifadə olunan faktiki əlavələri adi üsullarla öyrənmək mümkün deyil. Biz ”betanin”in hələ də çuğundurdan əldə edildiyini düşünərək nə qədər saf olduğumuzu sübut edirik əslində...

### Qida əlavələri nədir?

Gün ərzində diqqət etmədən istehlak edilən qidalarda ən çox rast gəlinən qida əlavələrini araşdırsaq ən çox ”Bisfenol-A” maddəsinə rast gələrik. Qida sənayesində məhsulların xarab olmasının qarşısını alan ən məşhur əlavədir. Estrogen hormonu kimi təsiri olan bu qatqı bədənimizdə qidaların estrogen nisbətinin artmasına səbəb olur. Bu səbəbdən trombosit istehsalı azalır və orqanizmdə endometrioza səbəb olur. Bu, uşaqlığın daxili xəstəliyidir və müalicəsi çox çətindir.

Nitrat-nitrit bu gün emal edilmiş ət məhsullarında ən çox istifadə edilən əlavədir. Bu iki əlavə qoruyucu, rəngləndirici və ləzzət artırıcı kimi istifadə olunur. Natrium Nitrit xüsusilə ölkəmizdə nitrat-nitritdən sonra ən çox istifadə edilən qatqı növüdür. Kolbasa, sosiska kimi emal edilmiş ətlərdə istifadə olunur. Bu məhsullar vasitəsilə istehlak etdiyimiz nitrit orqanizmdə kanserogen maddələr olan nitrozaminləri əmələ gətirir. Nitrozamin bədənimizdə mutasiyalara və xərçəngə səbəb olur. Natrium sulfitdən qida sənayesində rəng və konsistensiya qoruyucusu, həmçinin xarab olan məhsulların ağardıcı vasitəsi kimi istifadə olunur. Şirniyyat, pendir, saqqız, dondurma, portağallı içkilər, meyvə şirələri və peçenye kimi bişmiş məhsullarda da rast gəlinən bu maddə yaddaş pozğunluğuna səbəb olur.

Bu arada, natrium sulfit və natrium nitrit xüsusilə hamilə qadınlar və uşaqlar üçün təhlükəlidir.

GMO buğdadan və GMO qarğıdalıdan istehsal edilən karamellərdə rəngləndiricilər və dadlandırıcılar var. Xərçəngə səbəb ola bilən bu qatqılar konservləşdirilmiş qidalar, hamburgerlər, tortlar, peçenye və qənnadı məmulatları kimi bir çox məhsulda olur. Titan dioksid də ən təhlükəli qida əlavələrindən biridir. Alüminiumdan əldə edilən bu qatqı bəzi şirniyyatlarda nəmləndirici və rəngləndirici kimi istifadə olunur. Zəhərli və ya allergen maddələrə qarşı həssaslığa səbəb ola bilər. Dünyanın bir çox ölkəsində qadağan olunmuş maddədir.

Aspartam saqqız, ketçup, sous, şokolad, qazlı içkilər, dərman və pəhriz qidaları kimi məhsullarda istifadə olunur. Tərkibində fenilalanin adlı sintetik amin turşusu var. Bu maddə fenilalaninin qanda və toxumalarda toplanmasına səbəb olur. Uşaqların inkişafında beyin zədələnməsinə səbəb ola bilər. Göz qapaqlarında, dodaqlarda və əllərdə şişməyə səbəb ola bilər.

Monosodium qlutamat adlı qida əlavəsi ləzzət artırıcıdır. Bir çox fabriklərdə, restoranlarda və kafelərdə dad artırıcı kimi istifadə olunur. Çin, yapon və türk mətbəxində çox istifadə olunur. Astma xəstələrində baş ağrıları, ishal, ürək sıxılmaları və şiddətli astma krizlərinə səbəb olduğu məlumdur.

Formaldehid adlı qatqı hazır məhsulların xarab olmasının qarşısını almaq üçün istifadə olunur. Formaldehid kimya sənayesində ən çox istifadə edilən maddələrdən biridir. Tekstil, xalça, boya, rezin, mebel və buna bənzər bir çox məişət məhsullarında istifadə olunur. Ümumiyyətlə, qida əlavələrinin tez-tez istifadə edildiyi hazır qidalar sağalmaz xəstəliklərin yaranmasına səbəb olur. Bunlardan bəziləri həzmsizlik, böyrək və böyrəküstü vəzi xəstəlikləri, reproduktiv orqan pozğunluqları, sonsuzluq, kistalar, xərçəng, diabet, tiroid, davranış pozğunluqları, başgicəllənmə, autizm, depressiya, alzeymer kimi bir çox nevroloji və ruhi xəstəliklərdir.

### Soyuqdan istiyə - istidən soyuğa

Qablaşdırmanın üzərindəki son istifadə tarixi araşdırılmalı və qidanın istehlak ediləcəyi müddətə ən uyğun olan məhsul seçilməlidir. Xüsusilə qeyd etmək vacibdir ki, dondurulmuş qida məhsulları soyuq zəncirdən ayrılmamalıdır. Yəni əgər bu məhsul mağazada soyuducuda mühavizə edilirsə alınan kimi ən qısa müddətdə istehlak edilməli, yaxud temperaturu dəyişmədən təkrar soyuducuya qoyulmalıdır. Unudulmamalıdır ki, hər bir qida öz xüsusi qorunma sahəsində olmalıdır. Hazır qidaların zərərli olmasının ən böyük səbəbi tərkibində olan konservantlardır. Konservantlar ilk baxışda təhlükəsiz görünsə də, bəzi hallarda olduqca zərərli ola bilər. Eyni zamanda, hazır qidaların təhlükəsi onların tez xarab olmasıdır. Hazır qidalar uzun ömürlü olduğunu iddia etsə də, bəzi hallarda normaldan daha tez xarab ola bilər. Bu vəziyyətlərdən birincisi yanlış saxlama şəraitidir. Demək olar ki, hər bir qida məhsulunun üzərində düzgün saxlama şərtləri qeyd olunsa da, bəzi hallarda buna əməl edilmir.

### Hazır qida yerinə ekoloji ev məhsulları

Hazır qidaların elmi cəhətdən sübut edilmiş bəzi zərərləri var. Çox uzun müddət, tez-tez istehlak edilən hazır qidaların tərkibində olan konservantlar xərçəng riskini artırır. Ürək tutmalarına səbəb olmaqla yanaşı, damar xəstəliklərinə də yol açır. Xüsusilə şəkərli diabeti olan və ya diabetə meyilli insanlar üçün hazır qidalar təhlükəlidir. Tərkibində çox boya və konservantlar olan qidalar son dərəcə risklidir. Bu kimi bir çox səbəblərə görə bir çox insanlar hazır qidalardan maksimum imtina etməlidir. Əvəzində ev konservləri hazırlana bilər, bunun üçün o qədər də çox olmayan vaxt və hazır qidalaya xərclənən vəsaitdən qat-qat az vəsait tələb olunur.

Məsələn, şahidi olmusunuz, mağazalarda turşuların satıldığı bölmə həmişə bol müştərili olur. İnsan niyə turşunu marketdən alsın ki? Bir kələmi, 1 kilo yerkökünü, 2 ədəd çuğunduru 1 ovuc duzla ovsanız 1 həftədən sonra ləziz turşunuz olacaq, üstəlik ən azı 3 kilo olacaq bu turşuya cəmi 3-4 manat xərciniz çıxacaq. Halbuki eyni məbləğə mağazadan bir ovuc turşu ala bilərsiniz.

Hələ hazır şorbaları demirəm... Bəzən iş çox olarsa, səhhətinizdə problem olarsa hazır şorba sizin üçün göydəndüşmə fürsət olacaq. Amma bu şorbaların tərkibindəki konservantlar ondan asılı qalmağa səbəb olur, nəticədə siz ev üsulu şorbanı sevmir, yerinə hər fürsətdə hazır şorba alırsınız. Şorbalara atılan toyuq bulyonları... Təhlükəsi barədə məlumatlısınızmı?

Dondurulmuş, dilimlənmiş kartof alanlar kütləvidir. O kartofların kanserogen olduğunu bilmirlər? Əlbəttə, bilmək istəmirlər. Çünki kartof soymaq, doğramaq onlar üçün işgəncədir, lakin onkoloji xəstəliklər zamanı çəkəcəkləri işgəncə heç bir ağrı ilə müqayisə edilməyəcək. Uşaqlı-böyüklü hamı kola xəstəliyinə tutulub. Mövsümündə qəpik-quruş olan meyvələrdən kompot ehtiyatınızı görsəniz bütün qış boyu sağlam, zərərsiz içkiniz olacaq.

Qatığı mağazadan alanlar var hələ. Axı indi az qala btün həyətlərə kəndlərdən məhsul gətirən adamlar var, mağazadan 500 qramını 2 manata aldığınız qatığın 3 litrini 3 manata satır kənddən gələnlər. Həm sərfəli, həm də sağlam. Kimyəvi məhsullardan hazırlanmış, əhəngə bənzəyən mağaza qatığı yerinə kənd qoxuyan ekoloji təmiz qatıq almaq olmazmı?

Analar südəmər körpəsinə faydası olsun deyə kəsmik alır mağazadan. Süd tozundan, kimyəvi üsullarla hazırlanan o kəsmikdən övladınız fayda yox, zərər görür. Ekoloji təmiz südə 1 qaşıq limon suyu qatıb özünüz də hazırlaya bilərsiniz ev üsulu kəsmiyi - əziyyətsiz, ekonomik. 2 yumurtanı, bir parça yağı, 1 stəkan süd və 1 stəkan unla yoğurduğunuz xəmirlə hazırladığınız kökələrin alternativi hansı mağazada daha ekonomik və daha sağlam ola bilər ki? Övladınızın çantasına qoyacağınız ev üsulu şirniyyat məktəb bufetində vaxtı keçmiş, tarixi yenilənmiş köhnə peçenyelərdən daha dadlı deyilmi? Aylarla eyni yağda qızardılan peraşkiləri, qutabları ev üsulu etmək olmazmı? Ailəmizin sağlamlığı təhlükə altındadırsa bir qədər zəhmət çəkmək lazımdır.

*Lalə Mehralı*

# Sevgisiz, ruhsuz, aqressiv dünya

***Ruhi sağlamlıqla fiziki sağlamlığın, əslində ayrı-ayrı anlayışlar olduğunu desələr də, bir çox psixoloqa görə hər ikisi bir-birinin eynidir. "Sağlam ruh sağlam bədəndə olar" misalı bu yerdə ən yaxşı örnəkdir. İnsan sağlamlığını qorumaq üçün bədəninə vaxt ayırdığı qədər ruhunu da nəzərə almalıdır, onların bir-birinə sıx əlaqələrlə bağlı olduğunu deyən ekspertlər yaşadığımız dövrdə ruh yüksəkliyinin az adamda rastlandığını da vurğulayırlar. Dalbadal baş verən təbii fəlakətlər, müharibələr, epidemiyalar dünya əhalisinin ruhi-psixoloji gərginlik içində yaşamasına səbəb olur. Qısası, dünyanın psixoloji vəziyyəti heç də qənaətbəxş deyil.***



## Hər ölkədə minimum 25 faiz

Dünyada hər dörd nəfərdən biri həyatının hər hansı bir mərhələsində psixi xəstəlikdən əziyyət çəkir. 75 yaşlı insanlarda bu nisbət hər iki nəfərdən biridir. Bütün dünyada psixoloji sağlamlıq problemləri olan 500 milyondan çox insan var və onlardan yalnız hər 20 nəfərindən biri, bəzən hətta 30 nəfərindan biri tibbi yardım ala bilir. Ən çox müşahidə edilən ruhi xəstəliklərə depressiya, narahatlıq, davranış pozğunluqları, alkoqol və narkomaniyaya bağlı psixi pozuqluqlar və şizofreniya daxildir.



Məlumat üçün qeyd edək ki, araşdırmalara görə hər ölkədə əhalinin 20-25 faizi ruhi xəstəliklərdən əziyyət çəkir. Ruhi pozğunluqlar həm yüngül, həm də ağır xarakterli olur. Ölkələr arasında ruhi xəstəliklərin sayına görə, kəskin fərqlənən demək olar ki, yoxdur. Mütəxəssislər hesab edir ki, bu xəstəliklərin əksəriyyəti müalicə edilə bilər. Çünki əksəriyyət sadəcə ruh düşkünlüyü yaşayır və əhvalını yüksəltmək istəmir.

## Ən aqressiv ölkə: hər iki nəfərdən biri...

Qlobal tədqiqat şirkəti "Gallup", "Qlobal Emosiyalar" hesabatının 2022-ci il buraxılışında dünyanın ən qəzəbli ölkələrinin sıralamasında birinci Livanı, ikinci Türkiyəni yazmışdı. Türkiyədən sonra Ermənistan, İraq, Əfqanıstan, İordaniya, Mali gəlirdi. Hesabata görə, Livanda əhalinin 49 faizi aqressivdir, Türkiyədə bu nisbət 48-dir. Yəni bu ölkələrdə hər iki nəfərdən biri qəzəblidir. Salvador əhalisinin 82 faizi özünü xoşbəxt və mülayim hiss etdiyini deyir. "Gallup"un həmin hesabatın 2023 buraxılışında isə ən aqressiv ölkələr siyahısının ilk pilləsində Livanın yerini İraq tutub, Türkiyə elə ikinci yerini qoruyub, Livan 3-cü yerdə qərarlaşıb.



Gündəlik həyatda, evdə, işdə, məktəbdə və münasibətlərimizdə bir çox stres faktorları ilə qarşılaşır, müəyyən səviyyələrdə münaqişələr, narahatlıqlar, başqaları ilə mübahisə və qarşıdurma yaşayırıq. Bu münaqişələrin baş verməsi təbiidir, çünki əksəriyyətimiz ipi çəkilmiş bomba misalı həyat yaşayırıq. Buna görə də qarşılaşdığımız, səbəbi olduğumuz və ya təsadüfi münaqişələri həll etmək üçün üstünlük verdiyimiz bəzi şüurlu və ya şüursuz üsullar bizə problem yarada bilər. Yaranan problemi kimimiz ünsiyyət yolu ilə, kimimiz də qol gücünə həll etməyə çalışır.

İnsanlar sosial problemlərini həll edə bilmədikləri üçün də aqressiya ilə yüklənirlər. Təsəvvür edin, ailəsinin ehtiyacını ala bilməyən hər hansı bir şəxs var və biz ondan mülayim olmasını, başqalarına qarşı aqressiya göstərməməsini gözləyirik. O isə bunu başqalarından gözləyir. Yəni, qarşılıqlı təmənna var, amma təminat yoxdur. Zehni, fikri ailə qayğıları, maddi problemlər, dolanışıq dərdi ilə yüklənmiş bir adam aqressiya ilə yüklənir, problemləri onu partlayacaq bomba halına gətirib çıxarır. Dolayısı ilə yolda, dükan-mağazada, işdə qarşılaşdığı hər hansı bir neqativ vəziyyətdə bu aqressiyasını boşaldır. Bütün bunlar da bizim psixologiyamızda özümüz hiss etmədən iz buraxır. Ya öz-özünə danışan adamlara çevrilirik, ya ailəsinə zərər verən birinə. Nəticədə psixi sağlamlığımız əlimizdən gedir.

## İşini sevməyənlər daha çox əziyyət çəkir

Psixoloq Sədaqət Həsrətova bildirir ki, sağlam bir bədən üçün yediklərimizə nə qədər fikir veririksə, saatlarla idman zallarında məşq ediriksə sağlam bir ruh üçün də olduğumuz mühitə, ünsiyyətdə olduğumuz insanlara, müzakirə etdiyimiz mövzulara, izlədiyimiz televiziya proqramlarına diqqət etməliyik. Bədənimizi tanıdığımız, bizə nəyin zərər verib-vermədiyini bildiyimiz kimi ruhi vəziyyətimizi də nəzarətdə saxlamalıyıq. İnsanın həmişə özünü başqalarına oxşatması, uğurlu insanların uğuruna paxıllıq və ya qibtə etməsi, hərəkətlərinə sərhəd qoymayaraq sonunda peşmmançılıq yaşamaq ruh düşkünlüyünü yaradan birinci səbəbdir.



Səhər 8-dən işə gedib gündə 9-10, bəzən 12-13 saat işləyən insanlarda ruh düşkünlüyü daha çox rastlanır. Müsahibimiz deyir ki, qadağalar, sərt iş qanunları bu problemi yaradan ikinci səbəbdir: "İşini sevməyən insanlarda ruh düşkünlüyü daha çox rastlanır. İşə həvəssiz gedən, bütün günü gördüyü işin stressi altında əzilən, axşamın olmasını, iş saatının bitməsini səbirsizliklə gösləyən insanlarda əlbəttə ki, ruh yüksəkliyi olmayacaq. Pessimizm, bədbinlik, həvəssizlik insanı yoran şeylərdir, ruhu yüksəldən, əhvalı yaxşılaşdıran məşğuliyyətlər belə zamanlarda müsbət effekt verir".

## Ruh yüksəkliyini necə yaratmalı?

Müsahibimiz deyir ki, bədənimizin edə bildikləri və edə bilməyəcəkləri olduğu kimi ruhumuzun da müəyyən sərhədləri var: "Təsəvvür edin, tanımadığınız bir mühitdə tanımadığınız bir insan sizə yaxınlaşanda necə narahatlıq keçirirsinizsə eyni vəziyyət ruhunuz üçün də keçərlidir. Ruh yüksəkliyini yaratmaq, əslində, öz əlimizdədir. Qətiyyətlə ruhu yoran, əsəbləri tarıma çəkən hadisələrə qarışmayın, televizorda yalnız ürəkaçan proqramlara baxın, tez-tez klassik və milli musiqilər dinləyin. Bunu bir növ terapiya kimi düşünün. Unutmayın ki, sizi işinizdən bezdirən, insanlardan qaçmağınıza səbəb olan ruh düşkünlüyüdür, ona görə ruhunuzu müalicə edin".

Psixoloq ruh yüksəkliyimizi qorumaq üçün bir neçə məsləhət də verdi: "Unutmayın ki, azad, sivil bir insan olmağımız hər şey edə biləcəyimiz anlamına gəlməz. Azadlığımız istədiyimiz hər şeyi etmək demək deyil, azadlıq bəzi şeyləri etmək istəsəniz belə etməməyinizdir. Hər bir insan həyatında nə zamansa əngəllərlə qarşılaşır, işimizi itirə bilərik, axtardığımız ünvanı tapmaya bilərik, zəng etdiyimiz adam telefonuna cavab verməyə bilər, ay sonunda kommunal xərclərimizi ödəməkdə çətinlik çəkə bilərik, imtahanda istədiyimiz nəticəni əldə edə bilmərik, bütün bunlar əlbəttə ki, dünyanın sonu deyil və ruh yüksəkliyimizi əlimizdən ala bilməz. Əngəlləri qəbul etmək bizi daha çox rahatladacaq".

## Hər addımı planlamaq ruhu xəstələndirə bilər

Həmsöhbətimiz deyir ki, valideynlərimizi, doğmalarımızı itirə bilərik, vəfat edə bilərlər, bu, bizim üçün ağır itkidir, amma həyatın qanunudur, ölənlə ölmək olmaz deyiblər, kədərimizi, faciəmizi yaşayırıq, matəmimizi tuturuq, amma yenidən həyata dönmək məcburiyyətindəyik. Çünki bizim də öhdəliklərimiz var, bizə ehtiyacı olan ailəmiz, övladımız və ya həyat yoldaşımız var. Ruh düşkünlüyünə imkan verməyin.

Çalışın insanlığa, dünyaya xeyir verin, nəsə yaradın, tikin, düzəldin, heç olmasa bir heyvana sahib çıxın, mərhəmət hissi ruhu rahatladacaq. Keçmişdə yaşadığınız problemləri ağlınızdan çıxarın, keçmişin bədbin xatirələrinə qapılıb həyatı özünüzə zəhər etməyin. Amma davamlı olaraq gələcəyi də düşünməyin, ölçüb-biçməyin, çünki gələcək sizin planladığınız kimi omayanda sizin ruh sağlamlığınıza təsir edəcək. Həyatda hadisələr öz axarı ilə baş verəcək və gələcək nə cür olursa-olsun, onu qarşılamağa hazır olmaq lazımdır.

***Lalə Mehralı***

# Dünyanı ədalətə çağıraq!



***Müharibə... Bu, cəmi səkkiz hərfin birləşməsindən yaranan sadə bir söz deyil, səslənməsi ilə özündə dağıntıları, qırğınları, qanı, göz yaşını, ata-ana, övlad, nişanlı, sevgili itkisini, nisgili, kədəri ehtiva edən bir məfhumdur. Müharibənin ağırlığını onu yaşayanlar bilər. Gecənin qaranlığında yuxusunu bombardman səsləri pozanlar, bir anın içindəcə evsiz-eşiksiz qalanlar bilər. Bu gün müharibənin acılarını yaşan Rusiya, Ukrayna, Fələstin, İsrail xalqı bilər. 4 il öncə biz bildiyimiz kimi...***

Müharibənin Vətəni yoxdur. O, harada baş verirsə, fərqli bir cəhəti olmur, eynilik təşkil edir. Bu səbəbdən də müharibənin nə olduğunu balasını müharibəyə göndərib yuxusu ərşə qalxanlar, sağ-salamat yola saldığı övladını şəhid kimi qoynuna alanlar bilər, ömrünün sonunadək qara yaylıq bağlayıb, gözləri yollarda balasını axtaran, yuxuları tək övladı olan analar bilər. Müharibənin nə olduğunu qəm-qüssədən üzündə qırış cığırları açılan, kədərdən beli bükülən atalar bilər. Atasından doymayan, ata adı gələndə gözləri qapılara dikilən, həsədi yalnız atalı yaşıdları olan uşaqlar bilər. Müharibənin nə olduğunu sevdiyi insanın nişanəsini onsuz dünyaya gətirən qadınlar bilər. Övladına müharibədə şəhid olan sevdiyinin adını verib onu hər çağırdığında ürəyi nisgildən şırımlanan analar bilər. Toy hazırlığı sevincini müharibənin əlindən aldığı, nişanlısını davaya yola salıb, onu şəhid kimi qarşılayaraq qara torpaqla paylaşan qızlar bilər. Toyundan cəmi bir-iki il ötən, bir üzü qız, bir üzü gəlin olanlar bilər.

## Müharibəyə məruz qalan xalq kimi...

Biz azərbaycanlılar keçmiş SSRİ, sonrakı MDB ölkələri arasında ən çox müharibəyə məruz qalan xalqıq. Qonşuluqdan kənar qonşumuzun başımıza açdığı bəlalar bütün dünyaya məlumdur. Dünya xalqlarından bizə qarşı törədilənləri pisləyənlər arasında illərdir ki, susanlar da olsa, lakin həqiqətin kimin tərəfində olduğunu çox gözəl bilirlər. Əsrlər boyu bu xalqa qarşı törədilən soyqırımları, haqsız, ədalətsiz müharibələri hələ demirəm. Tək son 30 ilə təsadüf edən müharibələr bizə yaxın tarix olduğu və gözlərimiz qarşısında acınacaqlı mənzərələri canlandırdığı üçün onlardan danışmaq istəyirəm.

Ermənilər tərəfindən 1988-ci ildən başlayaraq torpaqlarımıza qarşı irəli sürülən iddialar Birinci Qarabağ müharibəsinin dəhşətini yaşatdı xalqımıza. Torpaqlarımız bir-birinin ardınca işğal olundu. İllərlə ev tikib, yurd salan soydaşlarımız doğma torpaqlarından didərgin salındı. Öz ata-baba ocağından zorla çıxarılanlar Azərbaycanın dörd bir yanına səpələndi. Onlar yurdlarını qoyub gəlmişdilər, nə əvəz edərdi yurdlarını onlara? Də-də-baba torpaqlarını, məzarlıqlarda əzizlərini qoyub gəlmişdilər, nə bu nisgilə su çiləyə bilərdi? Bar üstündə bağlarını, ruzi-bərəkətli torpaqlarını, evlərini qoyub gəlmişdilər, nə qarşılayardı bu acını? Onlar hara, hansı şəraitə gəlmişdilər?



Azərbaycanın bugünkü gününə gəlməmişdilər, xeyr. Dövlətinin başında millətini əsla düşünməyən rəhbərlərin idarə etdikləri, iqtisadiyyatı tənəzzülə uğrayan, yoxsullaşmış vəziyyətdə olan ölkəmizə səpələnmişdilər. Nədən söhbət açım? İlk əvvəllər soydaşlarımızın yaşadığı evlərdənmi, oradakı şəraitin hansı vəziyyətdə olmasındanmı? Xanimanını qoyub çadır şəhərciklərdə ömrünün illərinin üstünə il gətirməklərindənmi?

Ümummilli Liderimizin, daha sonra isə dövlətimizin başçısı Cənab İlham Əliyevin rəhbərliyi dövründə müstəqil ölkəmizin inkişafı ilə bərabər, bütün səylər qaçqın-köçkünlərin rifahına yönəldi, çadır şəhərcikləri tamamilə ləğv olundu, hər bir qaçqın mənzillə təmin olundu. Onların məşğulluğu diqqətdə saxlanıldı. Bütün problemləri vaxtında həll olundu. Ən başlıcası isə onların bir gün öz ata-baba yurdlarına qayıtmaları gündəmdə daim birinci məsələ oldu və bunun üçün əsaslı tədbirlər həyata keçirilməyə başlandı.

Axı dərd təkcə haradasa bir mənzildə yaşamaq, hərtərəfli təminat deyildi. Yuxarıda vurğuladığım müharibənin acılarını yaşamışdı bu insanlar. Tək onlar yox, bütün xalqımız. Minlərlə itkimiz vardı. Son qanınadək torpaqların müdafiəsində dayanan oğullarımız şəhid olmuşdu. Gəl, bir tərəfdən bu acıya döz, digər tərəfdənsə qoyub çıxdığın el-oba dərdinə. Gəl, Laçınsız, Kəlbəcərsiz, Zəngilansız, Şuşasız, Qubadlısız, Ağdamsız yaşa, görüm, necə yaşayırsan. Gəl, müharibənin əlindən aldığı bu torpaqların haylı-haraylı, toylu-büsatlı günlərini unut, görüm, necə unudursan. Doğmaların uyuyan o qəbirləri düşmənin əlində qoy, rahat yaşa, görüm, necə yaşayırsan? Gəl, həm canından qoparılan



yurdunun, həm də minlərlə şəhidinin nisgilini bircə dəqiqə unut, görüm, necə unudursan

## Biz sülh istəyirik...

Düz 30 il, bu, az vaxt deyildi. Zamanın bir qərinəyə yaxın kəsiyi idi. Qaçqın-köçkünlərimiz nə qədər hərtərəfli qayğı ilə əhatə olunsalar da, axı onların canları o torpaqlarda idi. Nə vaxtsa yurdlarına qayıtmaq bu insanların tək arzusu idi. Müharibə istəmirdilər, yenidən fəlakət, qan görmək, şəhid qarşılamaq istəmirdilər. Lakin ocaqlarına yenidən qayıtmaqdan başqa istəkləri də yox idi. Bəs bu necə ola bilərdi? Məsələnin sülh yolu ilə həll olunması üçün istər Ümummilli Liderimiz Heydər Əliyev, istərsə də hər zaman "Biz sülh istəyirik, müharibə istəmirik",- deyən dövlətimizin başçısı uzun illər dünyaya çağırış etdi. Qarabağ məsələsinin dinc yolla həll olunması üçün illərlə beynəlxalq təşkilatlarla danışıqlar apardılar. Lakin danışıqlar heç bir nəticə vermədi. Çünki dünya ədalətsizlərdən xali deyil. Bəs Qarabağ düşmən əlində qala bilməzdi axı. Elə bu barədə Ulu Öndər deyirdi: "Təbiidir ki, biz Azərbaycanın suverenliyini bərpa edəcəyik. Torpaqlarımızın, ərazimizin bütövlüyünü bərpa edəcəyik. Amma hələlik, biz bunu sülh yolu ilə, beynəlxalq təşkilatların, ATƏT-in Minsk Qrupunun iştirakı ilə, onların köməyi ilə etmək istəyirik. Doğrudur, neçə illərdir ki, bu proses davam edir, danışıqlar gedir. Bu danışıqların əksəriyyəti mənim tərəfimdən aparılır. Mənim ətrafımda bu işlə məşğul olan vəzifəli şəxslər tərəfindən aparılır. Nəticə yoxdur. Amma bu, o demək deyildir ki, sülh danışıqlarının potensialı tükənibdir. Yox! Hələ var. Ona görə də biz yenidən müharibəyə başlamaq istəmirik. Biz istəmirik qan tökək. Başa düşürsünüzmü? Əgər bir şeyi sülh yolu ilə etmək olarsa, bir az da dözək, amma sülh yolu ilə həll edək. Ancaq həll edə bilməsək, təbiidir ki, biz torpaqlarımızı erməni işğalçılarının tapdağı altında qoya bilmərik. Biz onları mütləq azad edəcəyik. Nəyin bahasına olursa-olsun, hansı qüvvə ilə olursa-olsun, biz onları azad edəcəyik. Bunun üçün biz xalqımızın, vətəndaşlarımızın vətənpərvərlik hisslərini daha da gücləndirməliyik, artırmalıyıq".

## İkinci Qarabağ müharibəsi qaçılmaz idi

Lakin beynəlxalq təşkilatlar susdu. Ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliyə, başladığı müharibəyə, tökdüyü qanlara, minlərlə itkilərimizə, dağıdılan, yandırılan yurdlarımıza göz yumdu. İnsan haqlarına əhəmiyyət vermədi, insan amilinə sayğı duymadı. Biz müharibə istəmirdik. Lakin dövlətimizin başçısının da qeyd etdiyi kimi: "Deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi qaçılmaz idi. Bunu hər kəs bilirdi. Azərbaycan ictimaiyyəti də bilirdi, beynəlxalq vasitəçilər də bilirdi, biz də bilirdik. Sadəcə olaraq, ümidlər var idi ki, Ermənistan rəhbərliyində heç olmasa özünüqoruma instinkti özünü büruzə versin və onlar öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar. Əgər bu olsaydı, müharibəyə ehtiyac qalmazdı. Biz müharibə istəmirdik və bu gün də istəmirik. Hesab edirəm ki, müharibə riskini sıfra endirmək üçün bölgəmizdə, Cənubi Qafqazda müxtəlif təşəbbüslər irəli sürülməlidir. Biz buna hazırıq. Bizə müharibə lazım deyil ".

Bəli, biz İkinci Qarabağ müharibəsini də yaşamalı olduq. 2020-ci il sentyabr ayının 27-dən başlayaraq 44 gün Qarabağda qanlı-qadalı müharibə getdi. Yenə müharibəyə xas əlamətlər: fəlakətlər, dağıntılar, ölümlər, dinc əhalinin gözlənilməyən anda itkisi, hər gün cəbhədən gələn qara xəbərlər, hər gün yüzlərlə şəhid, qan qoxusu, göz yaşları, nalə, fəryad səsləri

Bax, budur müharibə. İstəmirdik, amma məcburduq. Bizi orada torpaqlarımız gözləyirdi, namusumuz, qeyrətimiz, mənəviyyatımız olan torpaqlarımız. Zəfər bizim oldu. Minlərlə şəhid versək də, minlərlə qazilərimiz olsa da, minlərlə dinc sakinimiz xəsarət alsa da, evləri dağılsa da, zəfər çaldıq. Çünki bu, haqq savaşı, haqq etdiyimiz zəfər idi.

Qayıtdıq Qarabağa, 30 il sonra qayıtdıq. Övladlarımız kimi şəhid Qarabağa qayıtdıq. 30 ildə dağıdılan, daşı daş üstə olmayan yurda qayıtdıq. Müharibənin fəlakətləri bax, budur. İzlədik, üzüldük Hanı o tarixi abidələrimiz, qədim məscid, pirlərimiz, məktəblərimiz, xəstəxanalarımız Hanı o mərtəbəli evlərimiz, həyətlərimiz. Yolları itib, cığırları ot basıb. Heç tapmadıq əzizlərimizin qəbrlərini. Dağıdılıb hamısı. "Hanı, hanı, bəs o, hanı?",- deyə-deyə çox dolandıq yurdumuzu. Amma suallarımız cavabsız qaldı. Çünki bu yurd iki dəfə müharibədən çıxmışdı. Tale yazımız olmuşdu erməni ilə qonşu olmaq.

## Müharibə itkidir: həm haqlı, həm haqsız tərəf üçün

Lakin ən dəhşətlisi budur ki, müharibə hər iki tərəfin itkisidir, həm haqlının, həm haqsızın. Dünyanın harasında olursa olsun, o yerdə ki, müharibə vardır, orada nalə, imdad səsləri, uşaq çığırtıları, hər gün insan ölümü, hər gün dağıntı vardır. Bu gün rusiyalı, ukraynalı, fələstinli, israilli uşaq, gənc, qadın, kişilərin faciəsini əks etdirən mənzərələrlə qarşılaşarkən adamın ürəyi parça-parça olur.

Ana dünyanın hər yerində ana, bala hər yerində göz nuru, ürək parasıdır. Yurd dünyanın hər yerində candan əziz, ocaq dünyanın hər yerində ondan uzaqda olana təşnədir. Bomba səsi bütün insanlar üçün fəlakətdir. Dağıntılar hər bir ölkə üçün iqtisadi tənəzzüldür. Müharibə məfhumu bütün dünya xalqları üçün fəlakətlər toplusudur. Belə isə müharibələrin dəhşəti ruhuna hopmuş bir azərbaycanlı olaraq demək istəyirəm ki, kaş müharibəsiz bir dünya qura bilək

Kaş ki dünya ədalətli olsun. Kimin haqlı, kimin haqsız olduğunu anlasın və haqsızı yerində oturtmağa çalışsın ki, müharibələr olmasın, qanlar axmasın.

Dünyanı ədalətə çağırıq!

***Mətanət Məmmədova***

# Uşağın cinsiyyəti və onunla bağlı xurafələr

***Fərdlər hamilə olduqlarını biləndə ən çox maraqlandıqları sual körpənin cinsinin qız və ya oğlan olmasıdır. Bəzi insanlar doğulana qədər körpələrinin cinsini öyrənmək istəməsələr də, bəziləri erkən öyrənməyə can atırlar. Ancaq bunun baş verməsi üçün körpənin cinsiyyətinin formalaşması prosesi tamamlanmalıdır. Bu proses müəyyən müddət ərzində baş verir.***





## Cinsiyyət necə formalaşır?

İnsanların cinsi xromosomlarla müəyyən edilir. Hər bir insan 23 cüt xromosom daşıyır. Bu xromosomların bir cütü cinsi təyin edir. Dişilər iki X xromosomunu, kişilər isə bir X və bir Y xromosomunu daşıyır. Buna görə də, embrionun cinsi sperma hüceyrəsi tərəfindən daşınan Y və ya X xromosomundan asılıdır.

Sperma hüceyrələri təsadüfi olaraq X və Y xromosomlarını daşıyır. Döllənmə zamanı yumurta hüceyrəsi yalnız bir sperma hüceyrəsi ilə birləşir. X xromosomunu daşıyan bir sperma yumurtanı dölləyirsə, qadın körpə əmələ gəlir. Y xromosomunu daşıyan sperma yumurtanı dölləyirsə, kişi uşaq əmələ gəlir. Kişi körpənin cinsinin hansı həftədə təyin olunduğu sualına belə cavab vermək olar: Cinsi orqan və cinsiyyət orqanının formalaşması 9-cu həftədən sonra başlayır. Penis və klitoris 14-cü həftəyə qədər eyni ölçüdə qalır. Sidik sisteminin formalaşması 14-cü həftədə tamamlanır. Ancaq bəzi hallarda bu proses daha uzun çəkə bilər.

## Cins nə vaxt müəyyən edilir?

Hamiləlik zamanı cinsin nə vaxt təyin olunması sualının cavabı fərqli olsa da, cinsin təyini prosesi ümumiyyətlə embrionun ilk həftələrində baş verir. Bu dövrdə embrion cinsiyyət orqanlarının inkişafı və cinsi hormonların təsiri ilə cinsiyyətini təyin edir. Cinsiyyətin müəyyən edilməsi prosesi başa çatdıqdan sonra körpənin cinsi dəyişdirilə bilməz. Körpənin cinsi hamiləliyin 16-20 həftəsində müəyyən edilir. Ancaq bəzi hallarda cinsiyyət 14-cü həftədə müəyyən edilə bilər.

Cinsiyyətin hansı ayda aydınlaşacağı sualının cavabı ilk 3 ay ərzində olduğu kimi verilə bilər. Bu proses zamanı gələcək ananın həkimi ultrasəs müayinəsi və ya qan analizi kimi üsullardan istifadə edərək körpənin cinsini təyin edə bilər. Bununla belə, ultrasəs görüntüləmə nəticələri körpənin mövqeyinə və ya texniki problemlərə görə qeyri-dəqiq ola bilər.

## Cinsi Necə Öyrənmək olar?

Körpənin cinsini öyrənməyin birdən çox yolu var. Bu səbəbdən hamiləliyin müxtəlif dövrlərində körpəsinin cinsini bilmək istəyən şəxsə həkim müxtəlif testlər tətbiq edə bilər. Ancaq bu testlər hər kəs üçün uyğun olmaya bilər və bəzi testlər digərlərindən daha çox risk daşıya bilər. Bu testləri aşağıdakı kimi sıralamaq olar.

## ULTRASƏS

Uşağın cinsiyyətini təyin etmək üçün ən çox yayılmış üsullardan biri ultrasəsdir. Ultrasəs körpənin bətnində olan şəkillərini yaradır və həkimə cinsiyyətini təyin etməyə imkan verir. Körpənin inkişafını və sağlamlığını izləmək üçün də istifadə edilə bilər. Ultrasəs müayinəsi ilə cinsi təyin etmək üçün ilk növbədə hamiləliyin 16-20-ci həftələri arasında olmalısınız. Ultrasəs zamanı siz masanın üstündə uzanırsınız. Sonra, ultrasəs mütəxəssisi gələcək ananın qarnına bir gel tətbiq edir və ultrasəs probunu qarnına yerləşdirir. Ultrasəs zondu yüksək tezlikli səs dalğaları göndərərək ana bətnində olan körpənin şəkillərini yaradır. Nəhayət, həkim körpənin cinsiyyət sahəsini yoxlayır və onun cinsini təyin edir. Ultrasəs körpənizin cinsini təyin etmək üçün etibarlı bir üsuldur, lakin tamamilə dəqiq olmaya bilər. Bəzən körpənin bətnindəki mövqeyi və ya digər amillər ultrasəsin dəqiq olmasını çətinləşdirə bilər.

## Dədə-baba üsulu və xurafələr

Körpənin cinsiyyətini təxmin etmək üçün qədim zamanlardan bizə ötürülən dədə-baba üsullarını sınamağa nə deyirsiniz?

Lakin qeyd edək ki, bunların hamısı mədəni ötürmə yolu ilə günümüzə gəlib çatmışdır. Bu proqnozlar bəzi qadınlar üçün doğru olsa da, heç birinin elmi əsası yoxdur.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

**1.** Gözəlliyiniz itib?

Hamiləlik dövründə artan hormonlar səbəbiylə dərinin təsirləndiyi bir həqiqətdir. Bəzi qadınlar daha da gözəlləşərkən, bəziləri üzlərində sızanaqların artdığını yaşayırlar. Beləliklə, "Hamiləlik zamanı sızanaqlar cinsiyyət haqqında bir ipucu verirmi?"

Keçmiş insanlar inanırdılar ki, körpə qız ananın gözəlliyini oğurlayacaq. Bu səbəblə hamiləlik zamanı üzdə ləkə və sızanaq kimi halların qız uşağına işarə etdiyi düşünülür. Dəriniz həmişəkindən daha gözəl və hamardırsa, oğlan körpəsi yoldadır. Körpənizin cinsini təxmin etmək üçün güzgüyə baxın və gözəlliyiniz yerində olub-olmadığını yoxlayın.

Bir sözlə, hamiləlik zamanı sızanaq problemi.

**2.** Sidik rənginə diqqət yetirin!

Hamiləlik dövründə sidik rənginin cinsiyyət haqqında necə məlumat verə biləcəyini sizə xəbər verək. İddiaya görə, sidiyin parlaq rəngi qız uşağı, açıq sidik rəngi isə oğlan uşağı göstərir.

**3.** Fikriniz şirindədir, yoxsa duzluda?

İndi hamiləliyiniz zamanı ən çox nəyə can atdığınızı düşünün. Soruşa bilərsiniz ki, hamiləlik zamanı yemək istəyi cinsiyyətə necə təsir edə bilər? İnanca görə, oğlan övladının əlamətlərini göstərən gələcək analar duzlu yeməklərə can atırlar. Qız anası olacaqlarsa, adətən şirniyyata üstünlük verirlər.

**4.** Qarnınızdakı körpə haradadır?

Atalarımız bunun sirrini tapıblar. "Hamiləlik zamanı oğlan uşağının olub olmadığını necə başa düşmək olar?" deyənlər üçün kiçik bir ipucu var. Körpənizin tam olaraq qarnınızın harada yerləşdiyini yoxlayın! Deyirlər ki, hamiləlik zamanı qarın aşağı düşürsə, bu cinsin kişi olması deməkdir. Əgər qarnınız yüksəkdirsə, bu, qızınız olduğunu göstərir.

**5.** Sivri və ya düz qarnınız var?

Hamiləlik zamanı qarının forması ilə cins arasında əlaqə qurublar. Hamiləlik zamanı qarnınız sivri olursa, bu oğlan uşağına işarədir. Dəyirmi qarın körpə qızın əlamətidir.

**6.** Ürək bulanmanız güclüdür?

Təcrübəli anaların məlumatı budur ki, şiddətli səhər bulantıları qız övlad sahibi olmağın ən böyük əlamətlərindən biridir. Tədqiqatlar həmçinin göstərir ki, şiddətli ürəkbulanma yaşayan gələcək anaların qız uşağı dünyaya gətirmə ehtimalı daha yüksəkdir.

**7.** Çox emosionalsınız?

Hamiləlik dövründə cinslə bağlı proqnozlar verərkən emosionallıq məsələsinə də diqqət yetirilməlidir. Son vaxtlar əhvalınız necədir? Əgər tez-tez emosional partlayışlar yaşayırsınızsa, körpənizin qız olması ehtimalı yüksəkdir. Oğlan anaları ümumiyyətlə daha sakit əhval-ruhiyyədə idilər.

**8.** Qarnınızdakı qara xətt haradadır?

Hamiləlik dövründə cinsiyyət əlamətlərindən biri də qara qarın xəttinin yeridir. Bu xətt göbəkdən yuxarı davam edərsə, körpə oğlan, göbəkdən aşağı davam edərsə, qız uşağı olacaq.

**9.** Hansı nahiyələrdə kökəlmisiniz?

"Oğlan, yoxsa qız?" Suala cavab olaraq böyüklərimiz hamiləlik zamanı çəki artımı ilə bağlı belə qənaətə gəlirlər. Ombadan alınan çəki oğlan uşağı, beldən alınan çəki isə qız uşağı göstəricisidir.

**10.** Ayaqlarınız soyuqdur?

Hamiləlik zamanı soyuqluq hissi cinsiyyət proqnozuna yeni bir perspektiv gətirə bilər. Çünki şayiələrə görə, ayaqların üşüməsi və titrəməsi körpənin oğlan olacağından xəbər verir. Əks halda, bu, qız uşağı olacağınız deməkdir.

**11.** Sinə ucunun qaralması olubmu?

Sinə ucunun erkən qaralması körpənin oğlan olduğunu göstərir. Dəyişiklik yoxdursa, qız yoldadır. Bəli, hamiləlik zamanı körpənin cinsiyyətinin təyini ilə bağlı bizə çatmaq üçün illərdir meydan oxuyan inancların sonuna gəldik. Körpənizin cinsini təxmin etmək üçün bu əyləncəli yollardan istifadə etməkdə sərbəstsiniz, lakin yenə də elmə sadiq qalmalısınız.

## AMNİYOSENTEZ

Amniyosentez körpənin genetik quruluşunu araşdırmaq və döldəki inkişaf problemlərini təyin etmək üçün istifadə edilən bir testdir və körpənin cinsini təyin etmək üçün də istifadə edilə bilər. Bu test adətən hamiləliyin 15-19 həftəsi arasında aparılır. Bu həftələr arasında aparılır və təxminən 30 dəqiqə çəkə bilər. Həkim əvvəlcə ultrasəsdən istifadə edərək körpənin mövqeyini təyin edir. Daha sonra gələcək ananın qarnına iynə vurulur və uşaqlıq yolunda olan amniotik mayedən nümunə götürülür. Nümunə laboratoriyaya göndərilir və körpənin genetik quruluşu araşdırılır. Nəticələr adətən bir neçə gün ərzində geri qayıdır və körpənin cinsini və digər genetik xüsusiyyətlərini təyin edir.

## XORİON VİLLİS NÜMUNƏ ALMA

Chorionic Villus Sampling (CVS) körpənin genetik quruluşunu araşdırmaq və mümkün Daun sindromu riskini təyin etmək üçün edilən bir testdir. Bu testlə körpənin cinsini də öyrənmək olar. Chorionic Villus Sampling adətən hamiləliyin 10-13 həftəsi arasında aparılır. həftələr arasında aparılır. Birincisi, həkim ultrasəsdən istifadə edərək körpənin mövqeyini təyin edir. Sonra gələcək ananın vaginasına və ya qarın boşluğuna bir iynə daxil edilir və plasenta nümunəsi götürülür. Nümunə laboratoriyaya göndərilir və körpənin genetik quruluşu araşdırılır. Nəticələr adətən bir neçə gün ərzində əldə edilir və körpənin cinsini və digər genetik xüsusiyyətlərini müəyyən edəcək. Chorionic Villus Sampling körpənin cinsini təyin etmək üçün etibarlı bir üsul olsa da, bəzi riskləri var. Ən çox görülən risklər uşağın düşməsi və vaxtından əvvəl doğuşdur.

***Ayşən Vəli***

# “Xocalı faciəsi yalnız Holokost soyqırımı ilə müqayisə edilə bilər”

“Xalqımızın üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız Holokost soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı faciə ilə müqayisə edilə bilər”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Polad Mehdiyev deyib. Onun sözlərinə görə, XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. ”Azərbaycanlılara qarşı Beynəlxalq cinayət hüququ ilə cinayət sayılan genosid(soyqırım), təcavüz, insanlıq əleyhinə cinayətlər törədilmişdir. ”Soyqırımı” anlayışının hüquqi mənası BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A (III) saylı qətnaməsi ilə qəbul etdiyi ”Soyqırımı cinayətinin qarşısının alınması və ona görə






cəzalar haqqında” Konvensiya ilə müəyyən edilmişdir və müəyyən hərəkətləri etməklə hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi kimi başa düşülür”.

Politoloq sözlərinə davam edərək bildirib ki, Azərbaycan Respiblikası Prokurorıuğu tərəfindən xocalı soyqırımı ilə əlaqədar cinayət işi açılıb. ”Aparılan rəsmi istintaq nəticəsində beynəlxalq hüquqa əsasən Xocalıda mülki əhaliyə qarşı aparılmış hücumlara münasibətdə soyqırımı cinayətinin aşağıdakı elementlərinin mövcudluğu müəyyən edilmişdir:

* öldürmə və bədənə fiziki və mənəvi xəsarətə səbəb olmaqdan ibarət actus reus (əməlin obyektiv tərəfi);

* cinayət əməlinin sahiblərinin hədəfinə tuş gələn xüsusi mühafizə olunan qrupun mövcudluğu;

* irqi, etnik, milli və ya dini əsaslarla fərqlənən qrupun tam və ya qismən məhv edilməsi üçün xüsusi soyqırımı niyyəti.

Xocalıda törədilmiş cinayətlərə görə Beynəlxalq məhkəməyə müraciət edilməli və bu cinayətlərə Beynəlxalq məhkəmə münasibət bildirərək Ermənistan dövləti və onun səlahiyyətli şəxslərini məsuliyyətə cəlb etməlidir. Həmin şəxslərin hıbsinə order verməlidir. Ermənistan Roma statutunu ratifikasiya edib. Buna görə də məhkəmənin qərarı məcburu xarakter daşıyır. Eyni zamanda Xocalı soyqırımı bir çox ölkələrdə qəbul olunan parlament aktlarında tanınmış və xatırlanmışdır. Bu vaxtadək, Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları, həmçinin ABŞ-ın 20-dən çox ştatı tərəfindən müvafiq parlament qətnamələri qəbul edilmişdir. 20 noyabr 2012-ci il tarixində Cibutidə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında Xocalıda törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qətnamə qəbul edilmişdir. 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İƏT İslam Zirvə Konfransının 12-ci sessiyasında qəbul olunan Yekun Kommünikedə üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağırılırlar”.

***Ziya Hikmətoğlu***



## FELYETON




# Nə etməli?

Vallah, ta deməkdən də yorulmuşuq, yazmaqdan da.

Nə etməli?

Nə qədər demək, nə qədər yazmaq olar? Axı bu dilin günahı nədir ki, illərdir ki, insanlardan çəkdikcə çəkir?

Nə etməli?

Biri ona rus dili yamayır, biri türk dili, biri ingilis dili...

Nə etməli?

***

O gün qəzet köşklərinin birinin qarşısında dayanmışam. Qəzet alıram. İki gənc qız yaxınlaşdı köşkə. Gördüm ki, birbaşa üstümə gəlirlər, heç növbə, sıra gözləmək fikirləri yoxdur, bir kənara çəkildim. Çəkildim, çünki hiss etdim ki, elə başımın üstündən satıcıya müraciət edəcəklər.

Salamsız, sabahsız, qızlardan biri:

-Sizdə poşete var?

Satıcı:

-Nə?

-Poşete.

-Ay qızım, anlamadım, nə istəyirdiniz?

Bu dəfə görünür qız təbindən çıxdı və hirslə:

-Poşete də, poşete...

Satıcı:

-Göstərə bilərsiniz, vallah, nə istədiyinizi anlamadım.

Bu dəfə isə qız daha çox hirsləndi və satıcıya nə desə yaxşıdır?

-Bilmirsinizsə, burada nə üçün oturmusunuz.

Satıcı:

-Ay qızım, burada nə üçün oturmağımı özüm bilərəm. Sən zəhmət olmasa, bir Azərbaycan dilində danış, görüm, nə deyirsən.

-A, siz bilmirsiniz, poşete nədir?

Satıcı:

-Xeyr, bilmirəm, bilmək də istəmirəm.

Gördüm ki, bunlar dalaşacaqlar, müdaxilə etməli oldum:

-Kağız çanta deyir,əmi.

Satıcı qızışdı, nə qızışdı:

-Ay bala, niyə öz dilimizdə danışmırsınız? Hələ bir üstəlik məni də günahkar çıxarırsınız. Mən nə bilim poşetemoşete nə deməkdir? Az qalırsan ki, məni döyəsən də hələ. Sən haradan öyrənmisən bu poşete sözünü. Həm də ki, elə bir əda ilə tələffüz edirsən ki, heç nə anlamaq olmur. Yox, burada poşete-zad yoxdur.

Qızlar çox narazı şəkildə, necə deyərlər, satıcıya əməlli-başlı yuxarıdan aşağıya baxdılar və köşkdən ayrıldılar. Aralarında danışdıqları bu sözləri eşitdim:

-Köhnəliyin qalığı, bilmir ki, poşete nədir...

Mənim də ki, cin vurub başıma, lakin nə etməli?

İndi gənclərimizin əksəriyyəti belədir ey... Bax bunlarla nə etməli?

***

Hələ bu harasıdır ki... Çıx şəhəri gəz, dolaş. Böyük ticarət mərkəzlərindən, restoran, kafe, şadlıq saraylarından tutmuş kiçik mağaza, marketlərədək tanıtım lövhələrinə nəzər sal, onda bax, otur bu dilin dərdi-sərini ağla. Bir neçə saat dayan küçədə, ətrafı müşahidə et, otur parkda ətrafa qulaq ver. Neçə-neçə belə gənc oğlan, qız görəcəksən, dilimizə qarışdırıb danışdıqları sözləri eşidəcəksən. Onda bu dilin başına gələnləri anlayacaqsan və deyəcəksən: nə etməli?

***

Nə etməli?

Heç nə, oturub əməlli-başlı düşünməli. Düşünməli ki, ay qardaşlar, ay bacılar, gəlin görək Türkiyədə bir nəfər türk köşkə yaxınlaşıb bizim dilimizdə nə isə istəyər? Gəlin görək, rus, ingilis ticarət mərkəzinin, restoran, kafe, market, nə bilim nələrinin üzərinə Azərbaycan dilində bircə kəlmə söz yazar? Və yaxud da küçədə, filanda dilinə bir kəlmə bizim dilimizdən söz qatar?

Nə etməli?

Heç nə, nə edəcəyik? Oturub özümüz özümüzə əməlli-başlı gülməliyik.

***

Hə, daha nə etməli?

Nə etməli, özümüz özümüzə gülərkən bəlkə o qəhqəhələrdən oyanıb özümüzə gələ bilərik. Bunu etməli. Etməli və ayılmalı. Dilimizə qayıdıb, öz dilimizdə danışmalı. Bircə kəlməsini də o dilə, bu dilə satmamalı. Çünki ana dili satılmağa layiq deyil. O, gözümüzdür, gözümüzü qoruduğumuz kimi onu da qorumalıyıq.

Nə etməli?

Deyilənləri eşidib, riayət etməli. Daha heç nə..

***Mətanət Məmmədova***

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

**ELMİN SONU**

(VI YAZI)

*Əvvəli ötən sayımızda*

Yazımızın əvvəlki hisəsində kainatın "Böyük Partlayış"dan sonra necə və hansı müddətə formalaşdığı haqda elmi və dini biliklərin uyğunluğunu izah etdik. Bu hissədə isə, sonrakı mərhlədən danışacağıq- kainatın genişlənməsindən və sonra baş verəcəklərdən.





Kainatın genişlənməsi haqda elmi faktın əldə ediməsindən 14 əsr qabaq müqəddəs kitabda bu, qeyd olunmuşdur. "Biz kainatı qüdrətimizlə yaratdıq və onu genişləndirməkdəyik". (Quran, Zəriyət surəsi, 51/47)

Kainatın genişlənmə sürəti kainatın hazırkı quruluşunun formalaşması üçün son dərəcə kritik bir dəyərə malikdir. Genişlənmə sürəti bir qədər də yavaş olsaydı, günəş sistemləri tam şəkildə təşkil olunmamış bütün kainat öz başına çökərdi. Kainat daha sürətlə genişlənsəydi, maddə kosmosa dağılacaq, bir daha qalaktikalar və ulduzlar əmələ gətirməyəcəkdi. Hər iki vəziyyət həyat demək idi və biz mövcud ola bilməzdik.

Ancaq bunların heç biri baş verməd və mövcud kainat kainatın genişlənmə sürətinin son dərəcə dəqiq dəyəri sayəsində meydana gəldi. Bəs bu tarazlıq nə qədər incədir?

Avstraliyanın Adelaide Universitetinin məşhur riyazi fizika professoru Paul Davies bu suala cavab verməк üçün uzun-uzadı hesablamalar apardı və təəccüblü bir nəticəyə gəldi. Daviesə görə, "Böyük Partlayış"dan sonra genişlənmə sürəti 0.00000000000000001 hissə belə fərqli olsaydı, kainat yaranmazdı.

Davies bu nəticəni belə şərh edir: "Hesablamalar kainatın genişlənmə sürətinin çox kritik bir nöqtədə olduğunu göstərir. Kainat bir az da yavaş, və ya bir az daha sürətlə genişlənsəydi, kosmik material tamamilə dağılacaqdı. Bu iki fəlakət arasındakı tarazlığın nə dərəcədə dəqiq hesablandığı aydın olur.

Bir sözlə kainatın "partlama" və genişlənmə sürəti inanılmaz dərəcədə dəqiqliklə müəyyən edilmişdir. Buna görə də "Big Bang" hər hansı bir kosmik partlayış deyil, hər cəhətdən çox dəqiq hesablanmış və nizamlanmış bir formalaşmadır". Paul Davies, Superforce: The Search for a Grand Unified Theory of Nature, 1984, səh. 184

Kainatın başlanğıcındakı bu möhtəşəm tarazlıq məşhur "Science" jurnalındakı bir məqalədə belə ifadə edilir: Əgər kainatın sıxlığı bir az da yüksək olsaydı, Eynşteynin ümumi nisbilik nəzəriyyəsinə görə, kainat atom zərrəcikləri arasındakı cazibə qüvvələrinə görə genişlənə bilməyəcək və yenidən kiçilərək nöqtə halına gələcəkdi. Başlanğıcda sıxlıq bir qədər az olsaydı, kainat inanılmaz sürətlə genişlənərdi, lakin atom hissəcikləri bir-birini çəkə və tuta bilməzdi, ulduzlar və qalaktikalar heç vaxt əmələ gəlməzdi. Hesablamalara görə, kainatımızın ilkin həqiqi sıxlığı ilə onun kritik sıxlığı arasındakı fərq 1 faizin katrilyonda birindən azdır. Üstəlik, kainat genişləndikcə bu tarazlıq daha da incələşir".

Stiven Hokinq kainatın mənşəyini təsadüflərlə izah etməyə çalışsa da, "Zamanın qısa tarixi" kitabında kainatın genişlənmə sürətindəki bu qeyri-adi tarazlığı belə qəbul edir:

"Kainatın genişlənmə sürəti o qədər kritik bir nöqtədədir ki, əgər bu sürət "Böyük Partlayış"dan sonrakı ilk saniyənin trilyonda bir hissəsi qədər belə kiçik olsaydı, kainat indiki vəziyyətinə çatmadan çökərdi. Stephen Hawking, A Brief History of Time, Bantam Press, London: 1988, s. 121-125

Bəs belə qeyri-adi tarazlıq nəyi göstərir? Əlbəttə ki, belə bir incə tənzimləmə təsadüflə izah edilə bilməz və şüurlu dizaynı sübut edir. Paul Davies əslində materialist yanaşmanı mənimsəyən bir fizik olsa da, bu həqiqəti belə qəbul edir:

"Kainatın çox kiçik ədədi dəyişikliklərə həssas olan hazırkı quruluşunun çox diqqətli bir şüurla yaradıldığını inkar etmək çox çətindir... Təbiətin ən təməl tarazlıqlarındakı incə ədədi tarazlıqlar kosmik dizaynın varlığını qəbul etməyin çox güclü dəlilidir". Paul Davies. Tanrı və Yeni Fizika. Nyu York: Simon & Schuster, 1983, səh. 189

Göründüyü kimi, elmin ortaya qoyduğu qəti nəticələr, materialist olmasına baxmayaraq, minlərlə digər nüfuzlku alimlər kimi, Paul Daviesin də kainatın şüurlu şəkildə dizayn edildiyini, başqa sözlə yaradıldığını qəbul etməsinə səbəb olmuşdur.

Beləliklə, kainatın təsadüfən yaranması ilə bağlı söhbətə nöqtə qoymaq olar. "Böyük Partlayış" üzrə ən güclü alimlərdən biri, nüvə sintezinin "atası" Fred Hayledən 2 sitatla bu mövzunu bağlayaq.

"Həyatın təsadüfən yarana bilmə ehtimalı ən yaxşı halda gülünc iddia olardı. Yaradılışın dəqiq hesabsız planı və heyrətamiz bir konsepsiyası var, lakin etiraf etməliyəm ki, bu planın və məqsədin nədən ibarət olduğunu mən bilmirəm". "Ən sadə bir hüceyrənin belə təsadüfi meydana gəlməsi ehtimalı bir fırtınanın metal zibiliyindən keçərkən ordakı qırıntılardan müasir elektronika ilə təchiz edilmiş bir "Boinq" təyyarəsi meydana gətirməsi ehtimalı ilə eynidir".

## Günəş Sistemi bizim üçünmü yaradıldı?

Yer planeti bildiyimiz kimi Günəş sisteminin bir hissəsidir. Bu sistem kainatdakı digər ulduzlarla müqayisədə orta ölçülü bir ulduz olan Günəş ətrafında fırlanan 8 planet və onların 54 peykindən ibarətdir. Yer sistemdə Günəşə ən yaxın 3-cü planetdir.

Gəlin əvvəlcə bu sistemin miqyasını anlamağa çalışaq. Sistemdəki ümumi kütlənin 99 faizini Günəş təşkil edir.Günəşin diametri Yerin diametrindən 103 dəfə böyükdür. Sistemin radisusu təxminən 1 milyard kilometr təşkil edir. Ancaq belə nəhəng ölçülərə malik olan Günəş sistemi, yerləşdiyi Süd Yolu qalaktikası ilə müqayisədə olduqca təvazökardır. Çünki Süd Yolu qalaktikasında 200 milyarddan artıq ulduz var ki, onların da əksəriyyəti Günəşdən böyükdür. Bu ulduzlardan Günəşə ən yaxın olanı "Alfa Sentavr"dır.

Kiçik analoji müqayisə aparaq. Yer kürəsini adi gözlə görmək çətin olan bir toz zərrəsi böyüklüyündə etsək, onda Günəş qoz boyda olacaq və Yerdən 3 metr uzaqlıqda yerləşəcək. Bu miqyasda biz "Alfa Sentavr"ı Günəşdən 640 kilometr məsafədə yerləşdirməli olardıq. 120 000 işıq ili diametrində yerləşən Süd Yolu qalaktikasında bir-birindən belə qeyri-adi məsafələrlə ayrılan azı 200 milyard ulduz var. Günəşimiz bu spiral formalı qalaktikanın qollarından birində- mərkəzdən 28 min işıq ili məsafədə yerləşir.

Ulduzlar arası məsafə çox böyükdür. Təsəvvür edə bilmək üçün deyim ki, 300000 km/san sürətlə hərəkət edən işığın ən yaxın ulduzdan gəlib bizə çatması üçün 4,26 il lazımdır.

Ancaq maraqlısı odur ki, Süd Yolu qalaktikası kosmosun bilinən hissəsini nəzərə aldıqda çox "kiçik" bir yerdir. Çünki kosmosda başqa qalaktikalar da var və hesablamalara görə, onların sayı təxminən 500 milyarddır.

Göy cisimlərinin kosmosda paylanması və onlar arasındakı böyük boşluqlar Yerdə həyatın mövcud olması üçün vacibdir. Səma cisimləri arasındakı məsafələr Yerdəki həyatı dəstəkləmək üçün bir çox universal qüvvələrə uyğun şəkildə təşkil edilmişdir. Bu məsafələr birbaşa planetlərin orbitlərinə və hətta onların mövcudluğuna təsir edir. Əgər bu məsafələr bir qədər az olsaydı, ulduzlar arasındakı cazibə qüvvələri planetlərin orbitlərində sabitliyi pozardı. Bu qeyri-sabitlik planetlərdə həddindən artıq temperatur dəyişikliklərinə səbəb olacaq. Məsafələr bir az da böyük olsaydı, supernovalar tərəfindən kosmosa atılan ağır elementlərin paylanması çox seyrək olardı və Yer kimi dağlıq planetlər əmələ gələ bilməzdi. Hazırda mövcud olan ulduzlar arasındakı boşluqlar bizim kimi planetar sistemin mövcud olması üçün ideal məsafədir.

Məşhur biokimya professoru Maykl Denton "Təbiətin taleyi" kitabında yazır:

"Fövqəlnovalar və əslində bütün ulduzlar arasındakı məsafələr kritik məsələdir. Qalaktikamızda ulduzlar arasındakı orta məsafə 30 milyon mildir. Bu məsafə bir qədər az olsaydı, planetlərin orbitləri qeyri-sabit olardı. Əgər daha böyük olsaydı, bir fövqəlnova tərəfindən dağılan maddə o qədər dağılacaqdı ki, bizimki kimi planet sistemləri çox güman ki, heç vaxt əmələ gəlməyəcəkdi. Kainatın həyat üçün uyğun bir yer olması üçün supernova partlayışları çox xüsusi bir sürətlə baş verməli və bu partlayışlarla digər bütün ulduzlar arasındakı məsafə çox xüsusi bir məsafə olmalıdır. Bu məsafə bu anda artıq mövcud olan məsafədir". Michael Denton, The fate of nature, səh. 11

Beləliklə, kosmik fəzanın təsəvvür edilməyəcək dərəcədə nəhəng ölçüdə, ulduzların və qalaktikaların isə təsəvvür edilməyəcək qədər uzaq məsafədə yerləşməsi heç də təsadüfi deyil.

Professor Corc Qrinşteyn "The Symbiotic Universe" (Simbiotik kainat) kitabında bu inanılmaz böyüklük haqqında yazır:

"Ulduzlar bir-birinə bir az daha yaxın olsaydılar, astrofizika çox da fərqli olmazdı. Ulduzlarda, dumanlıqlarda və digər göy cisimlərində baş verən əsas fiziki proseslərdə heç bir dəyişiklik olmazdı. Uzaqdan baxsaq, qalaktikamız indiki kimi görünəcəkdi. Yeganə fərq o olardı ki, mən gecə otların üstündə uzanıb ona baxanda səmada daha çox ulduz olardı. Amma bağışlayın, başqa bir fərq də olardı: Bu mənzərəni seyr edən "mən" olmazdım... Kosmosdakı bu nəhəng boşluq bizim varlığımızın ilkin şərtidir. George Greenstein, Simbiotik Kainat. Nyu York: William Morrow, 1988, səh. 21

Qrinsteyn bunun səbəbini də açıqlayır; Kosmosdakı böyük boşluqlar bəzi fiziki dəyişənlərin insan həyatı üçün mükəmməl şəkildə formalaşmasına imkan verir. Bundan əlavə, Yerin kosmosda üzən nəhəng göy cisimləri ilə toqquşmasına mane olan amil kainatdakı göy cisimləri arasında belə böyük boşluqların olmasıdır. Bir sözlə, səma cisimlərinin kainatda paylanması insan həyatı üçün lazım olan ölçülərdədir. Nəhəng boşluqlar təsadüfi görünmürdü; Onlar məqsədyönlü yaradılışın nəticəsidir.

Bizim dünyamız qalaktikamızdakı nəhəng kosmos boşluğunda bir çimərlikdə qum dənəsi müqayisəsini belə götürmür. Kainat o qədər böyükdür ki, onu insan beyni ilə qavramaq mümkün deyil. Qalaktikamızdakı göy cisimləri arasındakı orta məsafədə çox kiçik bir artım və ya azalma belə həyat üçün uyğun bir planetin mövcud olmayacağı anlamına gələrdi.

Sistem daxilində planetlərin düzülüşü, ölçüləri, orbitləri, hərəkər sürətləri, kimyəvi tərkibləri elə mükəmməl şəkildə qurulmuşdur ki, bütün bunlar dünyamızda həyatın mövcud olmasını və qorunmasını təmin etsin. Çox faktlar gətirmək olar, lakin cəmi 2-ni qeyd etmək kifayətdir. Yupiter planeti hazırkı mövqeyində elə dəqiqliklə "oturdulmuşdur" ki, qalaktikadan sistemimizə daxil olan asteroidlərin Yerlə toqquşmamasını təmin etsin. O, ya bu kosmik cisimləri özünə çəkir, ya da onun trayektoriyasın dəyişdirib Yerdən yan keçirdir.

Yerin təbii peyki Ay da hazırki mövqeyinə yüksək dəqiqliklə sanki əllə qoyulub. Ayın ölçüsü, orbiti, planet ətrafında fırlanma sürəti elə qurulub ki, Yerdə həyatın əmələ gəlməsində və bir çox təbii proseslərin tənzimlənməsində ciddi rol oynayır.

"Qurani-Kərim"də deyildiyi kimi, "şübhəsiz ki, bunlarda anlaya bilənlər üçün hikmətlər vardır"...

**(Ardı olacaq)**

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ
SƏS
21 fevral
2025-ci il

# Kərə yağı alarkən nəyə diqqət etmək lazımdır?

*AİB sədri mühüm məqamlara aydınlıq gətirdi*



“Kərə yağı alarkən ilk növbədə etiketinə diqqət yetirmək vacibdir. Bəzən istehsalçılar alıcıları aldatmaq üçün qablaşdırmanın üzərinə inək şəkli çəkir, ”naturalnaya maslo” və digər cəlbedici ifadələr yazırlar. Bəzi hallarda məhsul əslində kərə yağı ilə bitki yağlarının qarışığı-spred yağı olur. Buna görə də etiketi diqqətlə oxuyub belə yağlardan uzaq durmaq lazımdır”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Onun sözlərinə görə, həmçinin, kərə yağının keyfiyyətini yoxlamağın bəzi yolları var: ”Məsələn, kərə yağı dondurulduqda daha bərk olur və kəsilərkən qırılıb tökülür. Mağazada yağı sıxdıqda daha sərt hiss olunursa, kərə yağı olma ehtimalı yüksəkdir. Bununla yanaşı, etiketi diqqətlə oxumaqla yanaşı, qiymətə də fikir vermək lazımdır. Çox ucuz yağların tərkibində adətən bitki yağları və digər qarışıqlar olur. Bazarlarda və kiçik dükanlarda satılan ”nənənin nehrə yağı”, ”nənənin yağı” kimi təqdim edilən yumru, ağ yağlara da ehtiyatla yanaşmaq lazımdır”.

Eyyub Hüseynov sözlərinə belə davam edib: ”Çünki onların təxminən 90 faizi bitki yağları və müxtəlif turşuların qarışığından ibarətdir. Bu cür ucuz yağların kərə yağı ilə heç bir əlaqəsi yoxdur”.

***Ayşən Vəli***

## Masallıda şəhidin oğlu silahdan açılan atəş nəticəsində ölüb

Masallı sakini ehtiyatsızlıqdan odlu silahdan açılan atəş nəticəsində ölüb. SİA-nın verdiyi xəbərə görə, hadisə Masallı rayonunun Qarğalıq kəndində baş verib. İlkin məlumata görə, kənd sakini Ayxan Əzizov qonşusunun evində odlu silahla ehtiyatsız davranıb və silahdan açılan atəş nəticəsində ölüb.

Qeyd edək ki, Ayxan Əzizov Azərbaycan Ordusunun giziri, şəhid Elvin Əzizovun oğludur. Elvin Əzizov Vətən müharibəsində Füzuli uğrunda gedən döyüşlərdə şəhid olub.


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Avtomobil qəzaları niyə durmadan artır?



*EKSPERT SƏBƏBLƏRİ AÇIQLADI*

”Ümumiyyətlə fikir verirəm avtomobil qəzalarının artmasında birinci səbəb yol hərəkəti qaydalarını doğru-düzgün mənimsəməmiş sürücülərin sürücülük vəsiqələrini əldə etməsidir”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert İlqar Hüseynov deyib.

Onun sözlərinə görə, ikincisi təcrübəsiz gənclərin sükan arxasında yüksək sürətlə hərəkət etməsidir. ”Bundan başqa yersiz manevrlər, avtoxuliqanlıq hərəkətlərinə yol verməkləridir. Xüsusən Bakı şəhərində və ətraf ərazilərə hərəkət edərkən sürücülərarası məsafənin, yeni distansiyanın saxlanılmamasıdır. Bu məsafələrin saxlanmaması isə zəncirvari qəzalara səbəb olur. Eyni zamanda sürücü diqqətli olmalıdır. Bu sosial media istifadəçiliyi artıq dözülməz həddə çatıb. Sürücülər xüsusən də gənclər sükan arxasında ”TikTok”, ”İnstaqram” kimi müxtəlif sosial platformalarda əyləncə paylaşımlarını izləyirlər. Bu səbəblər avtomobil qəzalarının yaranmasında əsas səbəb və əsas amillər olaraq götürülməlidir”.

***Ziya Hikmətoğlu***

## BAŞSAĞLIĞI

Əyyar Qasımov, Səxavət Seyidov, Əli Nəcəfxanlı, Ramiz Hüseynov və Ağalar İdrisoğlu ailə üzvlərilə birlikdə, Şakir Abuşova qardaşı

**Ramiz Zəkəriyyə oğlu Abuşovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin***

***

Sumqayıt Dostlar Klubu idarə heyətinin sədri Hümbət Həsənoğlu, klubun idarə heyətinin üzvləri-Sovet Şükürov, Əli Əmirov (Ələmi) , Mayılxan Tağıyev, Məmməd Vəliyev, Kamil İbadov, Sahib Fərzəliyev, Eyruz Məmmədov, Rafiq Mehdiyev, Vüsal Hətəmov, Akif Şahbazov, Əliyar Fərzəliyev, Aydın Məlikov, Şahin Şəfiyev, Aydın Abbasov, Adil Poladov, Hacı Tahir Məlikov, Şakir Abuşova qardaşı

**Ramiz Zəkəriyyə oğlu Abuşovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin***

## “Real”, PSV, ”Borrusiya” və PSJ 1/8 finalda!

UEFA Çempionlar Liqasında pley-off mərhələsinə yekun vuruldu.Günün maraqla gözlənilən matçlarından biri ”Santyaqo Bernabeu”da oynanılıb. İlk görüşdə 3:2 hesablı qələbə qazanan ”Real” ”Mançester Siti”ni doğma meydanında qəbul edib. Erkən final da adlandırılan qarşılaşmanın qalibi Madrid təmsilçisi olub - 3:1. Yekunda ”Real” 1/8 finala adlayıb, ”Mançester Siti” mübarizəni dayandırıb.




PSJ 1 həftə əvvəl 3:0 hesabı ilə məğlub etdiyi ”Brest”ə 7 cavabsız qol vurub və adını 1/8 finala yazdırıb. PSV - ”Yuventus” matçının əsas vaxtında Niderland təmsilçisi 2:1 hesabı ilə üstün olub. İlk görüşdə Turin klubu eyni hesabla qalib gəldiyinə görə əlavə vaxt oynanılıb. PSV əlavə vaxtda daha 1 qol vuraraq ”Yuventus”u məğlub edib. Eyni zamanda Dortmund ”Borussiya”sının da növbəti mərhələyə vəsiqə qazandığı dəqiqləşib.

Qeyd edək ki, bunadək ”Feyenoord”, ”Bavariya”, ”Brügge” və ”Atalanta” 1/8 finala adlayıb. 1/8 finalın püşkatma mərasimi isə fevralın 21-də olacaq. Bu mərhələnin ilk matçları 4-5 martda, cavab qarşılaşmaları isə 11-12 martda oynanılacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**